RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 182 (8498) CÜMƏ AXŞAMI, 10 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev diplomatiyası Azərbaycanın geosiyasi çəkisini artırır

## Prezidentin milli maraqlara əsaslanan xarici siyasəti ölkəmizi strateji önəmi birmənalı etiraf olunan dövlətə çevirib

**Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirən Azərbaycan daim ardıcıl və sistemli addımlar atır. Son 17 ildə xarici siyasətin bütün istiqamətləri üzrə Azərbaycan diplomatiyası böyük uğurlar əldə edib.**

Prezident İlham Əliyevin tam müstəqil, düşünülmüş siyasət yürütməsi, eləcə də elan etdiyi hücum diplomatiyası ölkəmizə son illərdə böyük dividendlər qazandırıb. Təbii ki, bu durum Azərbaycanı istəməyən qüvvələri hər zaman narahat edib və buna görə də ölkəmizə qarşı çirkin kampaniyalar, məkrli olaylar, ikili standartlar prinsipləri davam etdirilməkdədir. Ancaq bütün hallarda Azərbaycan bu hücumlara layiqli cavab verib və haqq səsini dünyaya çatdırıb.

### Etibarlı və strateji tərəfdaş, milli maraqlara əsaslanan siyasət

Bu gün dünya xəritəsində olan heç də hər bir dövlət Azərbaycan kimi müstəqil xarici siyasət yürütmək iqtidarında deyil. Cənab İlham Əliyevin yürütdüyü xarici siyasət Azərbaycanı dünyada, ilk növbədə, etibarlı və strateji tərəfdaşa çevirib. Məhz bu siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq təşkilatlarda söz sahibi kimi qəbul edilir.

Diqqət etsək görərik ki, həqiqətən də Azərbaycanın xarici siyasətinin uğurları çoxdur. Bu sırada təkcə ölkəmizin 120 daimi üzvü olan Qoşulmama Hərəkatı və Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına sədrlik etməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bu uğurlar cənab İlham Əliyevin xarici diplomatiyasının təntənəsidir.

Azərbaycan Prezidentinin ən mötəbər tədbirlərə dəvət olunması, aparıcı dövlətlərin rəhbərləri, dünyada nüfuzlu ictimai-siyasi xadimlər və digər şəxslərlə görüşləri bir daha həm cənab İlham Əliyevin, həm də ölkəmizin yüksək nüfuzunun göstəricisidir.

Digər tərəfdən, cənab İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası sayəsində ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə xidmət edən böyük işlər görülüb. Beynəlxalq təşkilatlarda bununla bağlı 2003-cü ildən bu yana əhəmiyyətli addımlar atılıb. İndi həmin təşkilatların qəbul etdikləri sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün təmini məsələsi birmənalı olaraq əksini tapır. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və başqa beynəlxalq qurumlar Ermənistanın işğalçı olduğunu təsdiqləyir və Azərbaycan ərazisindən çıxmağı tələb edirlər.

Azərbaycana qarşı ikili standartlar siyasətinin yeridildiyi zamanda belə yüksək uğurların əldə edilməsi əlbəttə ki, cənab İlham Əliyevin böyük zəhmətinin bəhrəsidir.

Onu da vurğulamalıyıq ki, Azərbaycan müstəqil xarici siyasətini Ermənistanın ölkəmizə qarşı davam edən hərbi təcavüzü, beynəlxalq münasibətlərdə ziddiyyətlərin kəskinləşməsi və gərginliyin artması, beynəlxalq hüququn norma və prinsiplərinin kobud pozulması ilə müşayiət olunan fəaliyyətlər, o cümlədən yerləşdiyimiz regionun geosiyasi çətinlikləri şəraitində həyata keçirir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası xarici siyasətin çox mühüm aspektini təşkil edir. Ordumuzun Aprel və Günnüt zəfərləri, sonuncu Tovuz döyüşləri də göstərdi ki, təcavüzkar Ermənistanın manevr imkanları minimuma enib. Azərbaycan həm diplomatiya, həm də hərbi sahədə düşməni diz çökdürməyə tam qadirdir.

### Hücum diplomatiyası, bütün beynəlxalq tədbirlərdə Ermənistanın ifşası

Cənab İlham Əliyevin hücum diplomatiyası sayəsində işğalçı Ermənistanın bütün məkrli planları alt-üst edilib.

Ardı 3-cü səh.

# Əhalinin təhlükəsizliyi və rahatlığının təmin olunması istiqamətində tədbirlər davam edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərdəkan-Zuğulba avtomobil yolunda yerüstü piyada keçidinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, bu yerüstü piyada keçidi tikilərkən ətrafdakı yaşayış massivi, məktəbin mövcudluğu, insanların daha çox yolun bu hissəsindən istifadəsi və digər amillər nəzərə alınıb.**

Ardı 2-ci səh.



# Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sisteminin müasirləşdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemində təhlükəsizlik, texniki və proqram vasitələri sahəsində əsaslı dəyişiklik məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə 3,866 milyon (üç milyon səkkiz yüz altmış altı min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 sentyabr 2020-ci il*

# Həyata keçirilən zəruri tədbirlər müsbət bəhrəsini verir

## Pandemiyaya qarşı nümunəvi mübarizə yumşaldılmaların ardıcıl xarakter almasına imkan yaradıb

**COVID-19 Yer üzünün əsas problemi olaraq qalmaqdadır. Koronavirus infeksiyasının yayılmasının qarşısını almaqda ən effektiv yol karantin rejimi olsa da, bunun dünya iqtisadiyyatına ağır zərbəsi də reallıqdır. Buna görə də, dünyanın beyin mərkəzləri gecə-gündüz vəziyyətdən çıxış yolları arayır, təsir vasitələri axtarırlar.**

Digər tərəfdən, gözəgörünməz bəlanın birdəfəlik qurtuluşu olan peyvəndin hazırlanması ilə bağlı müxtəlif ölkələrdən ümidverici siqnallar da gəlməkdədir və Ümumdünya Səhiyyə Təşkilatının səlahiyyətli nümayəndələri bildirirlər ki, ilin sonuna yaxın vaksinlə bağlı irəliləyiş ola bilər.

Amma vəziyyətin normallaşmasına qədər pandemiya şərtlərinə ciddi əməl edilərək yoluxma təhlükəsindən qorunmaq lazımdır. Bu isə sosial məsafə saxlamaqla, maskadan istifadə və gigiyena qaydalarına əməl etməklə mümkündür.

Ardı 6-cı səh.




# Neft sazişləri Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafına təkan verir

**Belə bir qəbul olunmuş tezis var: “Neft - enerji deməkdir, enerji isə - sərvətdir”. Bu tezis Azərbaycanda uğurla reallaşdırılan neft strategiyasının nəticələri timsalında özünü bir daha təsdiqləmiş oldu.**

Ulu Öndər Heydər Əliyevin iqtisadi baxışlarında öncül yerlərdən birini tutan xarici əlaqələrin ölkəmizin mənafeyi baxımından gücləndirilməsi neft sənayesində, daha dəqiq desək, “Əsrin kontraktı” adlanan sazişdə özünü bariz nümayiş etdirir.

Vurğulamaq lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasının bel sütunu olan Azərbaycanın yeni neft strategiyasının zirvə sənədi - 1994-cü il sentyabrın 20-də imzalanmış və beynəlxalq aləmdə dərhal “Əsrin müqaviləsi” kimi dəyərləndirilmiş ilk neft sazişinin layihəsinin hər cəhətdən əsaslandırılmış, milli və dövlətçilik maraqlarımıza tam uyğun bir tərzdə işlənib hazırlanması Prezident İlham Əliyevin birbaşa rəhbərliyi və iştirakı ilə müsbət həllini tapmışdır.

Ardı 3-cü səh.

# Paşinyanın pandemiyaya qarşı mübarizəsi iflasa uğrayıb

## Ermənistan hər yüz min adama düşən koronavirus xəstələrinin sayına görə Avropada liderdir

**Ermənistanda pandemiya səbəbindən getdikcə ağırlaşan vəziyyət hakimiyyət üçün daha əlavə problemlərə yol açmaqdadır. Bu ölkədə sosial-iqtisadi durum koronavirus ucbatından daha sürətlə pisləşməkdədir.**

Baş nazir Nikol Paşinyanın Ermənistanda fövqəladə vəziyyət rejimini növbəti dəfə də uzadacağını bildirirlər. Lakin ölkədə bir çox açıqfikirli erməni siyasətçiləri fövqəladə vəziyyət rejiminin artıq neçənci dəfə uzadılmasına baxmayaraq, epidemioloji baxımdan bunun praktik olaraq heç bir effekt vermədiyini vurğulayırlar. Reallıq budur ki, Paşinyan səlahiyyətlilərinin gördüyü “qabaqlayıcı tədbirlər”ə baxmayaraq, ölkədə virusun yayılması ilə bağlı vəziyyət heç də ürəkaçan deyil.

Hazırda Ermənistanda virusa yoluxanların sayı 45 mini keçir. Pandemiya qurbanlarının ümumi sayı 900-ü ötüb.

Ardı 4-cü səh.

# Əhalinin təhlükəsizliyi və rahatlığının təmin olunması istiqamətində tədbirlər davam edir





*Əvvəli 1-ci səh.*









Keçid Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində inşa edilib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov keçidin texniki-iqtisadi göstəriciləri barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, keçidin ümumi uzunluğu panduslarla birlikdə 180 metrdir. Üç dayaq üzərində torşəkilli metal konstruksiyadan quraşdırılmış keçidin orta hissəsinin uzunluğu 52 metr, eni 4,5 metrdir. Piyada keçidi bir-biri ilə 57 dərəcə bucaq altında kəsişən 39 ədəd polad halqadan yığılıb.

Rahat hərəkət üçün keçiddə beynəlxalq standartlar nəzərə alınmaqla panduslar quraşdırılıb. Pandusların mailliliyi 8 dərəcəyə bərabərdir.

Qeyd edək ki, bu piyada keçidinin layihəsi italiyalı dizaynerin təxəyyülünün məhsuludur, konstruksiyaları isə yerli mütəxəssislər tərəfindən hazırlanıb.

## Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və “Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycanda son iyirmi ildə aparılan genişmiqyaslı sosial-iqtisadi quruculuq prosesi, fiziki infrastrukturun müasirləşdirilməsi, insan kapitalının inkişafı hazırda əldə edilmiş sosial rifah göstəricilərinin başlıca hərəkətverici qüvvələri olmuşdur. Bu dövrdə ölkəmiz zəruri infrastruktur və institusional inkişaf göstəriciləri üzrə beynəlxalq reytinqlərdə xeyli irəliləmiş, milli iqtisadiyyatın rəqabət qabiliyyəti xeyli yüksəlmişdir. Ümumi Daxili Məhsulun həcmi 3 dəfədən çox artmış, vətəndaşların həyat səviyyəsi nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdır.

Lakin son illərdə dünya iqtisadiyyatında potensial iqtisadi artım templərinin aşağı düşməsi, əmtəə bazarlarında qiymət volatilliyinin xeyli yüksəlməsi, qlobal maliyyə sabitliyinin kövrəkliyinin artması, xüsusilə ilin əvvəllərindən başlanan koronavirus pandemiyası və onunla əlaqədar əksər ölkələrdə sosial-iqtisadi fəallığın məhdudlaşması Azərbaycan iqtisadiyyatı qarşısında da yeni strateji siyasət çağırışları yaratmışdır. Əldə edilmiş sosial-iqtisadi rifah səviyyəsinin əlverişsiz qlobal mühitdə dayanıqlı saxlanılması və daha da yüksəldilməsi üçün milli iqtisadiyyatımızın beynəlxalq rəqabət qabiliyyəti gücləndirilməli, iqtisadiyyatın neft gəlirlərindən asılılığı minimuma endirilməli, ölkədə makroiqtisadi və maliyyə sabitliyi qorunmalıdır.

Növbəti onillikdə ölkəmizdə sosial-iqtisadi rifahın yüksəldilməsi üçün iqtisadiyyatın ikiqat artımının təmin edilməsi qarşıda duran başlıca strateji çağırışlardan biridir. Xüsusilə postpandemiya dövründə iqtisadiyyatın illik artım tempinin yüksəldilməsi üçün onun yeni mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi, bu məqsədlə daha dayanıqlı və inklüziv iqtisadi artım mənbələrinin yaradılmasına, xüsusilə özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların cəlbinə, qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyən edilməsi, qlobal dəyər zəncirinə fəal qoşulma, investisiya mühitinin radikal yaxşılaşdırılması, müasir səhiyyə və təhsil siyasəti vasitəsilə insan kapitalının keyfiyyətinin daha da yüksəldilməsi, biznesin tələblərinə uyğunlaşdırılması, mülkiyyət hüquqlarının daha effektiv qorunması və “biznesə dost” digər strateji vəzifələrin icrası təmin olunmalıdır.

Milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi təmin etmək, bunun üçün iqtisadi siyasət və iqtisadi islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə ölkədə iqtisadi siyasətin yeni strateji idarəetmə çərçivəsinin yaradılması tələb olunur.

İqtisadi siyasətin yeni idarəetmə çərçivəsi postpandemiya dövründə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsini və milli iqtisadiyyatın müasirləşdirilməsini hədəfləyən strategiyanın formalaşdırılmasını, xüsusilə onun vacib hissəsi olan iqtisadi islahatlar proqramının hazırlanmasını və uğurla həyata keçirilməsini təmin etməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, postpandemiya dövründə ölkənin milli inkişaf prioritetlərini özündə əks etdirən sosial-iqtisadi inkişaf strategiyasının formalaşdırılmasını, onun reallaşdırılmasını təmin edə biləcək iqtisadi siyasətin yeni strateji idarəetmə çərçivəsinin yaradılması, habelə səmərəli tənzimləmə və hüquq tətbiqetmə praktikasına nail olunması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadi Şurası (bundan sonra - Şura) yaradılsın.

2. Şuranın aşağıdakı tərkibi təsdiq edilsin:

**Şuranın sədri**

Azərbaycan Respublikasının Baş Naziri

**Şuranın üzvləri**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Azərbaycan Respublikasının İqtisadiyyat naziri

Azərbaycan Respublikasının Maliyyə naziri

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru.

3. Şuranın fəaliyyətinin təşkili məqsədilə Şuranın Katibliyi yaradılsın və Katibliyin funksiyasının həyata keçirilməsi Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin.

4. Müəyyən edilsin ki, bu Fərmanın 5.1-ci və 5.2-ci bəndlərində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi məqsədilə Şura yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları və elmi müəssisələri cəlb edə, aidiyyəti dövlət orqanlarının və maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yarada bilər.

5. Şuraya tapşırılsın ki:

5.1. ölkədə makroiqtisadi sabitliyin qorunması və sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə qlobal və milli iqtisadiyyatda, o cümlədən fiskal və monetar sektorlarda, həmçinin maliyyə-bank sektorunda baş verən proseslər öyrənilməklə cari və ortamüddətli dövr üçün iqtisadi siyasətin formalaşmasına, habelə ölkə iqtisadiyyatında yarana biləcək daxili və xarici təsirlərin qarşısının alınmasına yönəlmiş qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə həyata keçiriləcək islahatların və iqtisadi siyasətin istiqamətinin müəyyən edilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. fəaliyyəti barədə altı ayda bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. “Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1266; 2018, № 5, maddə 959, № 12 (I kitab), maddə 2593) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 sentyabr 2020-ci il*

## Azərbaycan ilə İtaliya arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub

Sentyabrın 9-da Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov İtaliyanın ölkəmizdəki səfiri Auqusto Massari ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycan ilə İtaliya arasında yüksəksəviyyəli əməkdaşlıq münasibətlərinin mövcudluğunu qeyd edərək, iki ölkənin rəhbərləri səviyyəsində imzalanmış strateji tərəfdaşlıq haqqında birgə bəyannamələrin bunun bariz nümunəsi olduğunu bildirib.

Ölkələrimiz arasında ali səviyyədə qarşılıqlı səfərlərin həyata keçirilməsinin münasibətlərin daha da möhkəmlənməsinə ciddi töhfə verdiyi qeyd olunub, bu xüsusda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin fevralında İtaliyaya dövlət səfərinin böyük əhəmiyyəti vurğulanıb. Səfir Auqusto Massari öz növbəsində ölkələrimiz arasında yüksəksəviyyəli strateji əlaqələrin bir çox sahələrdə uğurla inkişaf etdirildiyini bildirib.

Tərəflər iki ölkə arasında siyasi, iqtisadi, enerji, təhsil, elm, mədəniyyət və digər sahələrdə əməkdaşlıq münasibətlərinin genişləndirilməsi, o cümlədən qeyri-neft sektorunda layihələrin həyata keçirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar. Dünyanın üzləşdiyi COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində iki ölkənin nümayiş etdirdiyi həmrəylik və qarşılıqlı yardımın Azərbaycan və İtaliya arasında münasibətlərin yüksək səviyyədə inkişafına tam uyğun olduğu məmnunluqla qeyd edilib.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, iki ölkənin sərhədində, Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən son təxribatı, işğalçı ölkənin siyasi-hərbi rəhbərliyinin bölgədə gərginliyi artırmaq məqsədi güdən fəaliyyəti və bəyanatları, eləcə də Azərbaycanın münaqişənin həlli ilə bağlı mövqeyi barədə qarşı tərəfi məlumatlandırıb. İşğalçı Ermənistan və işğala məruz qalan Azərbaycan tərəfinə tarazlı yanaşma nümayiş etdirilməsinin qəbuledilməz olduğu, uzun illər ərzində müşahidə olunan bu kimi yanaşmanın Ermənistanın işğalçı siyasətinə son qoyması və bu xüsusda konkret addımlar atmaqdan boyun qaçırması üçün əsas təşkil etdiyi vurğulanıb.

Nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı İtaliyanın nümayiş etdirdiyi prinsipial mövqe ilə əlaqədar səfir Auqusto Massariyə minnətdarlığını bildirib.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## BMT və Azərbaycan arasında hərtərəfli əlaqələr üzrə fikir mübadiləsi aparılıb

Sentyabrın 9-da Xarici İşlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzaini qəbul edib.

XİN-nin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər BMT və Azərbaycan arasında qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlıq münasibətləri üzrə fikir mübadiləsi aparıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsünün yüksək qiymətləndirildiyi vurğulanıb və hazırda xüsusi sessiyanın yüksək səviyyəli iclasının format və modallıqları üzrə konkret müzakirələrin getdiyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, Ermənistan silahlı qüvvələri tərəfindən iki ölkənin sərhədində Azərbaycanın Tovuz rayonu istiqamətində törədilən son təxribat, Ermənistanın öncədən planlaşdırdığı bu hərbi təxribatla güddüyü məqsədləri, eləcə də Azərbaycan tərəfindən bu məsələnin beynəlxalq təşkilatlar çərçivəsində qaldırılması, o cümlədən BMT Baş katibinə məktubun ünvanlanmasından bəhs edib. Rezident əlaqələndirici Qulam İsakzai iki ölkə sərhədində baş vermiş son insident ilə bağlı BMT Baş katibinin açıqlamasına istinad edib, BMT rəhbərinin bu xüsusda fəal rolunu qeyd edib və BMT-nin münaqişənin sülh yolu ilə həllində maraqlı olduğunu bildirib.

Görüşdə habelə cari ildə BMT-nin 75 illiyi ilə əlaqədar birgə tədbirlərin həyata keçirilməsi təşəbbüsləri müzakirə olunub.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.



# İlham Əliyev diplomatiyası Azərbaycanın geosiyasi çəkisini artırır

## Prezidentin milli maraqlara əsaslanan xarici siyasəti ölkəmizi strateji önəmi birmənalı etiraf olunan dövlətə çevirib

*Əvvəli 1-ci səh.*

Beynəlxalq konfranslarda, forumlarda həm dövlət başçısı, həm də ölkəmizi təmsil edən digər siyasətçilər tərəfindən təcavüzkar tutarlı faktlarla ifşa edilib.

Prezident İlham Əliyev Rusiyada "Valday" Belynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı N.Paşinyanın "Dağlıq Qarabağ Ermənistanındır. Nöqtə" ifadəsinin yalan, həqiqətdən uzaq olduğunu söyləyərək "Qarabağ Azərbaycandır və nida işarəsi" fikrini söyləməklə Paşinyanın cəfəng bəyanatlarının, populist yanaşmasının üstündən xətt çəkdi. Ermənistanın baş naziri həmin sözü Xankəndidə ermənilər qarşısındakı çıxışında demişdi. Ancaq İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin və dünyanın onlarla tanınmış beyin mərkəzlərinin analitiklərinin qarşısında, "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasındakı çıxışı zamanı onun cavabını verdi.

Digər beynəlxalq təşkilatların iclaslarında da dəfələrlə Ermənistanın yalanları, uydurmaları ifşa olunub. Pandemiya şəraitində olduğumuz üçün bu gün beynəlxalq qurumların konfransları videformat vasitəsilə keçirilir. Sentyabrın 8-də AŞ PA-nın Siyasi işlər və demokratiya komitəsinin video-konfrans formatında keçirilən iclasında Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev çıxış edərək Ermənistanın təcavüzkar siyasətini və cinayətkar fəaliyyətini bir daha iştirakçıların diqqətinə çatdırıb. Tovuz döyüşləri və erməni təxribatı barədə geniş danışan deputat Ermənistanın beynəlxalq humanitar hüququ kobud surətdə pozduğunu vurğulayıb. T.Gəncəliyev Ermənistanın öz işğal siyasətindən əl çəkmədiyini, yeni ərazilərimizə iddialı olduğunu, dövlət səviyyəsində ilhaq siyasətinin aparıldığını və bütün bunların Ermənistanın müdafiə naziri D.Tonoyanın "yeni ərazilər üçün yeni müharibə" doktrinasıyla bir daha öz təsdiqini tapdığını qeyd edib.

Bütün bunlar Azərbaycanın hücum diplomatiyasının uğurlarıdır. Bu diplomatiya səyəsində dünya birliyi artıq kimin kim olduğunu aydın şəkildə görür.

### Ölkəmizin xarici siyasətinin əsas prioritetləri

Bu gün Azərbaycan, eyni zamanda, əməkdaşlıq formatlarının təşəbbüskarı kimi həm əməkdaşlıq, həm də təhlükəsizliyin təmini üzrə dünya siyasətində mövqeyini daha da gücləndirməkdədir. Azərbaycanın beynəlxalq təşkilatlarla, tərəfdaş ölkələrlə yaratdığı əməkdaşlıq formatları həqiqətən diplomatik uğurdur.

Ümumiyyətlə, Azərbaycan dövləti öz xarici, iqtisadi siyasətində və digər dünya dövlətləri ilə münasibətlərində açıq əməkdaşlıq siyasəti yürüdür. Bu münasibətlərdə yalnız milli dövlət maraqları əsas götürülür.

Prezident İlham Əliyev sentyabrın 7-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edərkən də bildirdi ki, coğrafi, geosiyasi mövqeyinə görə bir çox ölkələr Azərbaycanla əməkdaşlığa maraq göstərir. Azərbaycan açıq ölkə olduğu üçün bu əməkdaşlığa hər zaman hazırdır və bu əməkdaşlıqdan məmnunluğunu ifadə edir. Azərbaycan, həmçinin bir-birinə antaqonist münasibətdə olan dövlətlərlə də əməkdaşlıq, dostluq edə bilir. Yəni Azərbaycan bütün əməkdaşlığını qarşılıqlı, milli və dövlət mənafeyi maraqları çərçivəsində qurur.

Bu istiqamətdə ilk prioritet işğalçı Ermənistan istisna olmaqla, qonşu ölkələrlə münasibətlərdir və bu əlaqələr çox sağlam zəmində qurulub. Eləcə də qonşu ölkələr tərəfindən də Azərbaycana qarşı olan siyasət çox müsbətdir. Çünki Azərbaycan bu siyasəti dostluq, mehriban qonşuluq prinsipləri əsasında qurub.

Bir çox ölkələrlə strateji tərəfdaşlığı olan Azərbaycanın dünyanın nəhəng dövlətləri ilə münasibətləri çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Beynəlxalq təşkilatlara gəlincə, ölkəmizin BMT, NATO, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı və Avropa İttifaqı ilə əlaqələri də çox möhkəm zəmində qurulub. Aİ-yə üzv olan doqquz dövlətlə Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənədləri var. Hazırda Avropa İttifaqı ilə ölkəmiz arasında yeni saziş üzərində iş aparılır. Sazişin böyük hissəsi razılaşdırılıb.

Digər mühüm addım enerji layihələrinin reallaşdırılması istiqamətində atılıb. Cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan layihələr, Azərbaycanın iştirakçısı olduğu digər beynəlxalq layihələr regional və qlobal enerji təhlükəsizliyində ciddi rol oynayır. Bu gün Azərbaycan reallaşdırdığı layihələrlə Avropanın enerji xəritəsini dəyişir.

Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesinin fəal iştirakçısıdır. Ölkəmiz bu məsələdə səmərəli təklif və təşəbbüslərlə çıxış edir, praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Əlbəttə ki, bütün bunlar Azərbaycanın geosiyasi və geoiqtisadi çəkisini artırır və ölkəmizin strateji tərəfdaşlarının sayını çoxaldır. Çünki etibarlı tərəfdaşlığına görə bir çox ölkələr Azərbaycanla əməkdaşlığa maraq göstərir. Azərbaycan isə öz xarici siyasətində və digər dünya dövlətləri ilə münasibətində açıq əməkdaşlıq siyasəti yürüdür. Təbii ki, bu münasibətlərdə yalnız milli dövlət maraqları əsas götürülür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Neft sazişləri Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafına təkan verir

*Əvvəli 1-ci səh.*

Xarici tərəfdaşlarla aparılmış çoxsaylı danışıqlar, məsləhətləşmə və görüşlər zamanı o vaxt SOCAR-ın birinci vitse-prezidenti olan İlham Əliyevin qətiyyəti və səriştəliyi Azərbaycan dövlətinin maraqlarını mövcud geosiyasi reallıqlarla uzlaşdırmaqla gələcək konsorsiumun tərkibini, hasilatın pay bölgüsündə tərəflərin iştirak payını qəti şəkildə müəyyənləşdirməyə imkan yaratmışdır. Çox-çox sonralar cənab İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalanmağa hazırlanması prosesində rəhbər tutduğu prinsiplərin mahiyyəti barədə belə demişdir: "Azərbaycan yeni müstəqil dövlətdir, müstəqil həyatda ilk addımlarını atır... Təbii ki, biz neft kimi bir sərvətə malik olduğumuzdan həm beynəlxalq neft şirkətlərinin (bu, çox müsbət haldır), həm də mənafeləri Azərbaycanda kəsişən bir çox dövlətlərin güclü maraq obyektinə çevrildik. Bizə belə güclü diqqət və karbohidrogen ehtiyatlarının istər hasilatı, istərsə də nəql olunması baxımından hansısa rəqabət, əlbəttə, müəyyən qədər problemlər yarada bilərdi. Ona görə də mən həmişə demişəm: biz istəyirik ki, Azərbaycan rəqabət meydanı deyil, müxtəlif mənafelər arasında əməkdaşlıq zonası olsun".

Azərbaycanın neft strategiyası haqlı olaraq uzunmüddətli milli inkişaf proqramı kimi dəyərləndirilir. Bu strategiyanın əsas qayəsi ölkənin enerji resurslarının iqtisadi dövriyyəyə cəlb olunması və bunun da əsasında yeni müstəqil dövlətimizin milli təhlükəsizliyini təmin etmək, sosial-iqtisadi inkişafa dayanıqlı xarakter vermək, ölkəmizin düçar olduğu problemləri çözməklə gələcək nəsillərin firavan yaşaması üçün maddi bazanın formalaşması hesab oluna bilər.

Ulu Öndər dəfələrlə vurğulamışdır ki, Azərbaycan xalqının malik olduğu ən böyük sərvət olan neft təkcə indiki nəsillərə yox, həm də gələcək nəsillərə məxsusdur.

1994-cü ilin 20 sentyabr günü mübaliğəsiz demək olar ki, xalqımızın tarixində ən parlaq səhifələrdən biri kimi əbədi anılacaq. Məhz həmin gün Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə reallaşdırılan neft strategiyasının nəticəsi və istiqamətverici hesab olundu və xalqımız üçün çox böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malik "Əsrin kontraktı" adlanan neft müqaviləsi imzalandı. Çox əlamətdardır ki, məhz Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci il 16 avqust tarixli fərmanı ilə 20 sentyabr "Neftçilər günü" kimi təsbit olunmuşdur.

Ulu Öndər böyük uzaqgörənliklə ölkəmizin neft sənayesinin inkişafını məhz məşhur Qərb şirkətləri ilə əlaqələrin qurulmasında gördü. Digər tərəfdən o, inanırdı ki, neft sənayesinin dirçəldilməsi, ölkənin üzləşdiyi dərin böhrandan çıxması üçün sülh şəraiti vacibdir və bu məqsədlə də 1994-cü ilin may ayında atəşgahın dayandırılması barədə Bişkek protokolu imzalandı.

Əsrin "Neft sazişi"nin ən müsbət cəhətlərindən biri də heç bir ölkənin və ya iri şirkətlərin inhisarına əl yeri qoymurdu - istehlakçıların saylarının çox olması buna yol vermirdi.

Təmsil olunan ABŞ, Böyük Britaniya, Türkiyə, Yaponiya, Səudiyyə Ərəbistanı, Norveç kimi dövlətlərin heç biri sazişin "nəzarət zərfi"nə sahib deyildilər. Bu, Heydər Əliyevin müdrikliyi idi və indinin özündə də heç bir ölkə və ya beynəlxalq qurum Azərbaycana nəyi isə diktə edə bilmir.

Neft sazişlərinin əhəmiyyətindən danışarkən ən azı aşağıdakıları qeyd etmək vacibdir:

- sazişlər Azərbaycan Respublikasında xalqın iqtisadi və sosial rifahının yüksəldilməsi üçün real və uzunmüddətli zəmin yaratmışdır;
- xarici ölkələrin Azərbaycana investisiya qoymalarına böyük imkanlar açmışdır;
- Azərbaycan dünya iqtisadiyyatı üçün açıq ölkə kimi tanınmış, onun dünya iqtisadiyyatına inteqrasiyası reallaşmış və daha da güclənmişdir;
- Azərbaycan özünün həm ictimai-siyasi həyatında, həm də iqtisadiyyatda demokratik respublika kimi bütün dünyada tanınmışdır;
- Azərbaycan iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitlik bütün dünyaya sübut olunmuşdur;
- Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət olması dünya ölkələri tərəfindən qəbul olunmuşdur və xaricdə dövlətimizə etimad möhkəmlənmişdir;
- Azərbaycanın tamamilə müstəqil dövlət olduğu, xalqımızın öz sərvətlərinə sahib olduğu bütün dünyaya nümayiş etdirilmişdir;
- dünya ölkələrinin neftlə bağlı olmayan digər şirkətlərinin də Azərbaycana marağı artmışdır;
- mövcud iqtisadi potensialımızdan daha səmərəli istifadə olunması, uzun müddət durğunluq vəziyyətində olmuş neft-maşınqayırma, neft emalı və neft-kimya sənayesinin yeni inkişaf dövrünə qədəm qoyması və sənayemizin bütün sahələrinin canlanması üçün zəmin yaradılmışdır;
- yeni iş yerlərinin yaradılmasında, işçi qüvvəsinin hazırlanmasında, kadr potensialının möhkəmləndirilməsində və istifadə edilməsində mühüm nailiyyətlər əldə olunmuşdur.

Azərbaycanın azad iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməsi, dünya iqtisadiyyatına sıx bağlanması üçün bu sənədin çox böyük əhəmiyyəti var. Söhbət onun həm siyasi, həm də iqtisadi əhəmiyyətindən gedir.

Heydər Əliyev dənizdəki neft yataqları ilə bərabər, quruda da neft çıxarılmasına diqqəti gücləndirməyi daim tövsiyə etmişdir. Heç də təsadüfi deyildir ki, ARDNŞ-in birinci vitse-prezidenti olarkən cənab İlham Əliyev 1997-ci il fevralın 10-12-də ABŞ-ın Hyuston şəhərində Kembric Enerji Tədqiqatlar Assosiasiyasının enerji problemlərinə aid keçirdiyi beynəlxalq konfransda demişdir: "Hazırda quruda neft istehsalını inkişaf etdirməyə xüsusi maraq göstəririk. Dənizdəki neft yataqlarına sərmayə qoyuluşu ilə əlaqədar heç bir problem yoxdur və şirkətlərin çoxu bu sahəyə meyillidir. Azərbaycan isə, ilk növbədə, yüksək inkişaf etmiş beynəlxalq şirkətlərlə birgə işləmək arzusundadır və bu səbəbdən də kiçik və orta səviyyəli şirkətlərin dənizdəki sahələrdə işləmək imkanı çox azdır. Biz belə şirkətləri məhz qurudakı sahələrdə əməkdaşlıq etməyə dəvət edirik.

Mən sizi əmin edirəm ki, Azərbaycan dövləti əməkdaşlıq etmək istəyən hər bir şirkətin fəaliyyəti üçün lazımi şərait yaradacaqdır və bu əməkdaşlıq hər iki tərəf üçün faydalı əsaslar üzərində qurulacaqdır".

Neft sazişlərinin əhəmiyyətinin mühüm nəticələrindən danışarkən, dünyanın bir sıra aparıcı ölkələri ilə qarşılıqlı faydalı münasibətlərin qurulmasını, ölkəyə irihəcmli xarici investisiyaların və qabaqcıl texnologiyaların cəlb edilməsini, regionda stabilliyin qorunmasını, dünya iqtisadi sisteminə inteqrasiyanı və s. göstərmək olar.

Ümumilikdə isə demək olar ki, neft sazişləri imzalandığı vaxtdan Azərbaycan yeni inkişaf erasına qədəm qoymuşdur və hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə uğurla irəliləməkdədir. Neft sazişlərinin əhəmiyyətinin ən dolğun mahiyyətini cənab İlham Əliyev belə şərh etmişdir: "Bu, bizim üçün həyatda qalmaq layihəsi idi. Bu, bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək layihəsi idi. Bunlar hamısı baş verdi. Bizim nümunəmizdə neft lənət deyildi. Neft uğur qazanmaq, güclü ölkə qurmaq, insanlara normal həyat vermək, sabitlik, təhlükəsizlik, qonşularımızla harmoniyada yaşamaq üçün vasitələrdən, ən vacib vasitələrdən biri idi".

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın iqtisadi qüdrətini və beynəlxalq nüfuzunu xeyli artırmışdır. Artıq qlobal enerji layihələrinin mərkəzinə çevrilmiş Azərbaycan təkcə özünün deyil, həm də Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Saziş imzalandıqdan sonra istifadəyə verilmiş, böyük tarixi əhəmiyyət kəsb edən, transmilli infrastruktur layihələri olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dövlətimizin iqtisadi qüdrətini artırmış, geosiyasi mövqeyini xeyli möhkəmləndirmişdir.

Neft gəlirlərinin əhəmiyyətli dərəcədə artması Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün çox yaxşı zəmin yaratmışdır. Elə son dövrlərdə ölkəmizdə qeyri-neft sektorunun daha sürətlə inkişaf edərək neft sektorunu üstələməsi də bunun bariz nümunəsidir. Hazırda Azərbaycanın kifayət qədər zəngin valyuta ehtiyatlarının olması və bu məbləğin getdikcə artması belə deməyə əsas verir ki, ölkəmizin sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi, demokratik cəmiyyətin möhkəmlənməsi tendensiyası qarşıdakı illərdə də davam edəcəkdir.

Son illər ölkəmizdə ardıcıl və sistemli şəkildə atılan bütün addımlar güclü iqtisadi potensialın yaradılmasına, dövlətin möhkəmlənməsinə və xalqın ictimai təhlükəsizlik və sabitlik şəraitində yaşamasına müsbət təsir göstərmişdir. Regionların tarazlı inkişafı, sahibkarlara geniş rəvac verilməsi, yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması istiqamətində mühüm uğurlar qazanmışdır. Bütün bunların əsasında məhz ölkəmizin dərin düşünülmüş və uğurla reallaşdırılan neft strategiyası durur desək, yanılmarıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ 2004-cü ildə "Röyter" agentliyinə demişdir: "Hamı bilir ki, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi neft və qeyri-neft sektorunun inkişafına güclü təkan vermişdir. Lakin bizi bu məsələ də düşündürür ki, qısa bir zamanda ölkə varlananda bu imkanlardan necə istifadə etmək lazımdır... Buna görə də prezident seçkilərindən sonra bizim qəbul etdiyimiz regional inkişaf proqramı və sosial-iqtisadi yönümlü digər proqramlar əsasən regionlarımızın inkişafı, iqtisadiyyatımızın çoxşaxəliliyinin təmin olunması, yeni iş yerlərinin açılması, - sözsüz ki, bu yeni iş yerləri qeyri-neft sektorunda yaradılacaqdır, - məqsədi daşıyır".

Azərbaycanda neft gəlirlərindən istifadədə şəffaflığın təmin olunması istiqamətində Ulu Öndər Heydər Əliyev tərəfindən qəbul edilmiş ən mühüm sənədlərdən biri kimi 1999-cu il 29 dekabr tarixli "Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında" fərman xüsusi qeyd olunmalıdır.

Neft sərvətlərinin nəsillər arasında ədalətli bölünməsinin təmin olunması fəlsəfəsinin əsas götürülməsi zəminində yaradılmış Dövlət Neft Fondu şəffaflıq meyarlarını özündə ehtiva edən bir qurum kimi dünyada yüksək imic qazanmış və dəfələrlə beynəlxalq təltiflərə layiq görülmüşdür.

Dövlət Neft Fondunun hesabat sistemində şəffaflığın təmin edilməsi, təbii ehtiyatların idarə olunmasından əldə edilən gəlirlər və onların xərclənməsi istiqamətlərinin ictimaiyyətə çatdırılması üçün ən müxtəlif forma və üsullardan istifadə edilir. Fondun fəaliyyəti barədə illik hesabatlar mətbuatda mütəmadi olaraq dərc etdirilir. Fondun fəaliyyəti ilə bağlı ictimaiyyətə dəqiq məlumatların çatdırılması məqsədilə media nümayəndələri üçün vaxtaşırı mətbuat konfransları təşkil edilir və s.

Hazırda Neft Fondunun timsalında Azərbaycan neft vəsaitlərinin idarə olunması, şəffaflığın təmin edilməsi baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşməyə qadir olan bir ölkəyə çevrilmişdir.

Bir müddət əvvəl ABŞ-ın "New York Times", "Los Angeles Times" qəzetlərinin, "Bloomberg" informasiya agentliyinin və "Dow Jones/CNBC" telekanalının müxbirlərinə verdiyi müsahibəsində Azərbaycan Respublikasının Prezidenti özünün həyatiliyi artıq heç kimdə şübhə doğurmayan, əksinə, hamıda möhkəm maraq doğuran iqtisadi siyasətinin mühüm cəhətlərini belə bəyan etmişdir: "Belə hesab edirəm ki, Neft Fondunun fəaliyyəti ölkə iqtisadiyyatının gələcəkdə çoxşaxəli inkişafı üçün olduqca vacib rol oynayacaqdır. Neft və onun qiymətindən asılı olmamaq üçün Neft Fondunun vəsaitlərindən istifadə edərək, iqtisadiyyatın digər sahələrinin inkişafına kömək göstərməliyik. Eyni zamanda qeyd etmək istəyirəm ki, Azərbaycan Böyük Britaniyanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri olmuşdur və bu təşəbbüsə regionda təkan verilməsi istiqamətində göstərdiyimiz fəaliyyət ABŞ və Böyük Britaniya tərəfindən yüksək qiymətləndirilmişdir. Son beş ildə Neft Fondunun açıq və şəffaf şəkildə idarə olunması sahəsində təcrübəmiz mövcuddur və hesab edirəm ki, bu işi uğurla həyata keçiririk".

Digər bir çıxışında ölkə Prezidenti İlham Əliyev bir daha vurğulamışdır: "Büdcə təsdiq olunanda, büdcə paketi ilə bərabər, Neft Fondundan büdcəyə transfertlər də parlament tərəfindən təsdiq edilir. Yəni ki, bütün Azərbaycan xalqı Milli Məclisdəki öz nümayəndələri vasitəsilə gəlirlərin bölünməsində iştirak edir. Bu, belə də olmalıdır. Bu sərvət, təbii sərvətlər xalqa məxsusdur və Azərbaycan xalqı qərar verməlidir ki, o vəsait hansı istiqamətə yönəldilsin".

Dünya təcrübəsi göstərir ki, Dövlət Neft Fonduna bənzər qurumların resurs potensialı və fondun vəsaitlərindən istifadənin səmərəliliyi əsas üç amildən, o cümlədən neftin qiymət səviyyəsindən, neftçıxarmanın həcmindən və fondun aktivlərindən necə istifadə olunmasından asılıdır.

Bu amillərin hər üçünün vacibliyi şəraitində üçüncü amilin müstəsna əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Ona görə ki, təbii ki, nə vaxtsa neft-qaz resursları tükənəcək, yəni I və II amillər öz əhəmiyyətini itirəcəkdir. Və yalnız III amil neftsiz dönəmdə əhalinin rifahının təminatında öz təsirini qorumuş olacaqdır. Bu isə yalnız o halda mümkündür ki, Dövlət Neft Fondunun aktivləri onlardan düzgün istifadə və səmərəli yerləşdirilməsi sayəsində Azərbaycanın gələcək nəsillərinə fayda gətirə bilsin. Məhz belə bir şəraitdə əsl dayanıqlı iqtisadiyyat modelindən danışmaq olar. Çünki dayanıqlı inkişaf dedikdə, dünyada hazırkı zamanın tələblərini ödəyən, lakin gələcək nəsillərin mənafeyini təhlükə altına qoymayan iqtisadiyyat qəbul edilir.

Bu mənada Dövlət Neft Fondunun stabilləşdirici (dövlət büdcəsinin dünya qiymətləri konyukturasından asılılığının minimallaşdırılması) və yığım (gələcək nəsillər üçün vəsait formalaşdırılması) funksiyalarının optimallaşdırılması müstəsna əhəmiyyətə malikdir.

Bu baxımdan nə qədər fərqli şəraitdə yaşasaq da, bəzi ölkələrin, ilk növbədə də Norveçin Neft Fondunun təcrübəsindən bəhrələnmək məqsədəuyğun olardı.

Maraqlıdır ki, neft hasilatına görə dünyada 13-cü yeri tutan və ÜDM-də neftin və qazın xüsusi çəkisi 25-%-ə yaxın olan bu ölkədə öz həcminə görə dünyada birinci yeri tutan (≈1 trilyon dollar) neft fondu formalaşdırmaq mümkün olmuşdur, özü də təqribən 25 ilə. Fonda ilk neft gəlirləri 1996-cı ildə daxil olmuşdur. Bir cəhət də xüsusi vurğulanmalıdır ki, Norveçin Neft Fondu nəinki dünyada öz həcminə görə liderdir, həm də ölkəyə çox yüksək gəlirlər gətirir. Düzdür, Çində və BƏƏ-də neft fondlarında daha çox - müvafiq olaraq 1,8 və 1,2 trilyon dollar vəsait toplanmış olsa da, həmin vəsait Çində dörd, BƏƏ-də isə beş fondda paylanmışdır. Məlumat üçün bildirək ki, ən çox neft istehsal edən ölkələrdən biri olan Rusiyanın müvafiq fondu 124,5 milyard dollar vəsaitlə dünya fondları arasında yalnız 11-ci yeri tutur.



Norveç fondunun gəlirlərinin mənbələrindən danışarkən qeyd edək ki, həmin fond dünyada mövcud olan səhmlərin 1,5%-nə malikdir və 9 min şirkətdə (o cümlədən Apple, Microsoft, Alphalet, Nestle, Amazon kimi məşhur şirkətlərdə) paya malikdir. Fond yalnız 2019-cu ildə 180 milyard dollar gəlir əldə etmişdir (20%).

Ümumiyyətlə isə fondun vəsait qoyuluşundan illik gəlirlərin həcmi 5,9% təşkil edir. Heç də təsadüfi deyildir ki, Norveç fondunda ölkə əhalisinin hər bir nəfəri hesabına yığılmış vəsaitin həcmi 190 min dollardan çox təşkil edir.

Maraqlıdır ki, getdikcə daha çox norveçli fonda müraciət edərək onlara "çatası" vəsaitin (≈ >190.000 dollar) və ya onun bir hissəsinin verilməsini istəyirlər. Onlara izah edilir ki, bu vəsait yalnız ölkədə neft və qaz qurtardıqdan sonra xərclənə bilər və ya gələcək nəsillər üçün nəzərdə tutulmuşdur.

Müstəsna hallarda Norveç fondunun 3 faizini (özü də qoyulmuş investisiyalardan daxil olan gəlirdən) götürmək olar.

Fondun vəsaitlərinin 70 faizi dünya şirkətlərinin səhmlərinə, 28 faizi fiksə olunmuş gəlir gətirən aktivlər portfelinə, qalanı isə birjalarda kotirovka olunmayan daşınmaz əmlaka yönəldilir.

Norveç və BƏƏ-nin yüksək həyat səviyyəsindən söz düşəndə onların neft ölkələri olduğu göstərilir. Axı İraqda, İranda, Rusiyada və Meksikada da neft çox, əhalinin həyat səviyyəsi isə müqayisəolunmaz dərəcədə aşağıdır. Bu da sübut edir ki, karbohidrogenlərlə zənginlik yox, onlardan istifadə metodları daha mühümdür. Dünya təcrübəsi sübut edir ki, neft satışından əldə olunan gəlirlər qanunsuz yollarla ölkədən çıxarılmasa, digər ölkələrin biznesinə yatırılmasa, oğurlanmasa və ölkənin özünə yatırılmasa və ən nəhayət, düzgün idarə olunarsa, çox yüksək iqtisadi-sosial nəticələr əldə etmək, dayanıqlı firavan həyat tərzi təmin etmək olar. Rusiyalı mütəxəssislər Norveç və Rusiyanın müqayisəli təhlilini apararkən ən vacib fərqin idarəetməkdəki müxtəlifliklərlə əlaqələndirmişlər.

Azərbaycan da öz misalında təbii resurslardan düzgün istifadə etməklə işğal və xarici təzyiq şəraitində belə, güclü müstəqil dövlətə, dünyada böyük nüfuza və regionda mühüm söz sahibinə çevrilmişdir.

Məhz idarəetmənin yüksək olduğu ölkələrdə şəffaflıq da daha yaxşı səviyyədə təmin edilir, təbii resurslardan tam fərqli müsbət nəticələr verən istifadə şəraitində iqtisadi inkişafın dayanıqlılığı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi mümkün olur.

Yuxarıda müqayisə edilən ölkələrin timsalında görmək olur ki, neft gəlirləri düzgün idarəedilən ölkələrdə şəffaflıq indeksi yüksək və korrupsiya səviyyəsi aşağı (2019-cu ildə Norveç 7-ci, BƏƏ - 21-ci yer) olduğu halda, Rusiya bu göstəricilər üzrə 137-ci yerdə qərarlaşmışdı.

2017-ci ilin 14 sentyabr tarixində Azərbaycan nefti tarixində yeni səhifə açıldı. Həmin gün Azərbaycan hökuməti və BP başda olmaqla beynəlxalq konsorsium "Azəri-Çıraq-Günəşli" neft-qaz yatağının 2050-ci ilə qədər işlənməsi haqqında yeni saziş imzaladılar. Mötəbər xarici qonaqların da iştirak etdikləri və Bakıdakı Heydər Əliyev Mərkəzində keçirilən imzalanma mərasimindəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bu gün imzalanacaq kontraktın ölkəmiz üçün çox böyük əhəmiyyəti var. "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2056-cı ilə qədər uzadılır. Yeni imzalanacaq kontrakt Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış kontrakt da bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır. Bunun bir neçə əsas parametrlərini diqqətinizə çatdırmaq istəyirəm: kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək; SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək; SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bunlar əsas şərtlərdir. Əlbəttə ki, kontraktın bir çox müddəaları var. Əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var".

İlkin hesablamalara görə, bu saziş çərçivəsində ilk məhsul 2023-cü ildə əldə olunacaq və saziş müddətinin sonunadək 300 milyon barel neft çıxarılacaq. Sazişin digər əhəmiyyəti həm də ondan ibarətdir ki, böyük dərinliklərdən neft çıxarılmasına imkan verəcək yeni texnologiyaların tətbiqi və əvvəllər cəhd göstərilməyən mezozoy qatlarından neftin çıxarılması əsas məqsəd kimi götürülmüşdür. Yeni sazişdə ARDNŞ-in payının 11,6 faizdən 25 faizə qədər artırılması da diqqət çəkən məqamlardandır.

Birdən-birə dünyanı çənginə alan pandemiya - COVID-19 neft ölkələri üçün daha çox sarsıntılar yaratdı. Tarixdə ilk dəfə olaraq Norveç Neft Fondundan fonda qoyulandan çox vəsait götürmək məcburiyyətində qaldı, dövlət xərclərini qarşılamaq üçün aktivlərini satışa çıxardı. Halbuki nə 2008-ci ilin maliyyə böhranı, nə də ki, 2014-cü ilin neftin qiymətinin kəskin azalması şəraitində bu hal baş verməmişdi.

İndiyə kimi Norveç Neft Fondu 115 milyard dollara qədər vəsait itirmişdir, halbuki ən məhsuldar il olan 2019-cu ildə Fonda 180 milyard dollar vəsait toplanmışdı.

Elə bunun da nəticəsində Norveçdə adambaşına düşən fond vəsaitinin həcmi ötən ilki 200 min dollardan 190 min dollara qədər azalmışdır.

Bir neft ölkəsi olaraq Azərbaycan da bu çətinliklərlə üzləşmişdir. Lakin ölkə Prezidentinin vaxtında, dərin düşünülmüş və düzgün strategiyaya əsaslanan siyasəti sayəsində bir çox ölkələrdə baş verən iqtisadi tənəzzül baş verməmiş, yaranan geriləmələr isə diqqət mərkəzində saxlanılaraq dövlət himayəsinə götürülmüşdür. Bunun da nəticəsində bu ağlagəlməz çətinliklər ilində iqtisadiyyatımızın cəmi hətta inkişaf etmiş ölkələrlə müqayisədə daha az aşağı düşəcəyi proqnozlaşdırılır.

Yuxarıda göstərilənlərdən əlavə digər bir sıra müasir durum üçün aktual problemlər də qaldırılmışdır, o cümlədən özəl sərmayələrin təşviqi, sahibkarlara dəstəyin genişləndirilməsi, qeyri-formal məşğulluğun azaldılması, sosial sahəyə diqqətin masştabı, işsizlik və ictimai iş yerlərinin yaradılması, özünüməşğulluğun təşkili və s. Bütün bunlar, habelə 2020-ci ilin ölkəmizdə çox dərin və geniş islahatlar ili olacağı, siyasi islahatların və siyasi dialoqun genişləndirilməsi, yeni vətəndaş həmrəyliyinin formalaşması və digər atılan düzgün addımlar, koronovirusa qarşı Prezidentimiz tərəfindən görülən qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət dünyanı çənginə almış pandemiyada insanlarımızın sağlamlığının, onların həyatının qorunması sahəsində bir çox ölkələr üçün örnək olan və vətəndaşlarımız tərəfindən yüksək dəyərləndirilən dövlət başçısı ətrafında bizim daha sıx birləşməyimizə zəmin yaratmaqla bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağımıza ümidlərimizi möhkəmləndirir.

"Əsrin müqaviləsi" barədə fikirlərimi həmin kontraktın banisi Ulu Öndər haqda yaxın keçmişimizin digər görkəmli siyasi dövlət xadiminin sözləri ilə tamamlamaq istərdim:

Neft kontraktlarında Heydər Əliyevin rolu və uzaqgörən siyasəti 1997-ci il noyabrın 12-də keçirilən təntənəli mərasimdə Gürcüstanın o vaxtkı prezidenti E.Şeverdnadze tərəfindən layiqincə qiymətləndirilmişdir: "Prezident Heydər Əliyev bu yolla öz xalqına xas təmkin və cəsarətlə gedir. "Əsrin müqaviləsi" ideyasının yaranmasından tutmuş ilkin neftin nəqlinədək bu müqavilənin əslində bütün təfərrüatına yaxşı bələd olduğuma görə, Prezident Əliyevə göstərdiyi müdriklik və uzaqgörənlik üçün xüsusi minnətdarlığımı ifadə etmək istəyirəm. Bu müdriklik və uzaqgörənlik olmasaydı, belə nəhəng layihə çətin ki, reallaşardı".

***Vahid NOVRUZOV,***
***Azərbaycan Respublikası Auditorlar Palatasının sədri,***
***iqtisad elmləri doktoru, professor***

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib



**Sentyabrın 9-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Musa Quliyev çıxış edərək iclasda 2020-ci il yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən işlər barədə hesabatın təqdim olunacağını, komitənin 2020-ci il payız sessiyası üçün işlər planına baxılacağını, 7 qanun layihəsinin müzakirə olunacağını bildirib.**

Musa Quliyev ölkədə sosial siyasət sahəsində aparılan işlər barədə fikirlərini açıqlayıb, koronavirusla mübarizədə görülən işlərdən danışıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamı ilə koronavirusla mübarizənin kompleks şəkildə həyata keçirilməsi üçün Nazirlər Kabinetinə müvafiq tapşırıqlar verilib. Bu məqsədlə 3,5 milyard manat vəsait ayrılıb. Həmin vəsaitin böyük bir hissəsi əhalinin sosial müdafiəsinin gücləndirilməsi, iş yerlərinin qorunub saxlanılması, məşğulluq və işsizlik problemlərinin qarşısının alınması istiqamətlərinə yönəlib. Bu məqsədlə əhaliyə sosial dəstək vermək və məşğulluğun təmin olunması üçün dövlət büdcəsindən 600 milyon manat vəsait ayrılıb. Bütün bu tədbirlər 4,8 milyon nəfəri əhatə edib. Görülən işlər nəticəsində 1 milyon 660 min iş yeri və bu iş yerlərində çalışan insanların əməkhaqları qorunub saxlanılıb. İki milyon vətəndaşın pensiya, müavinət, təqaüd və digər sosial ödənişləri vaxtında həyata keçirilib.

Qeyd edilib ki, ünvanlı dövlət sosial yardım alan ailələrin sayı 10 min nəfər artaraq, bütövlükdə, 342 min Azərbaycan vətəndaşını əhatə edib. Yeni DOST mərkəzlərinin açılması da pandemiya dövründə böyük əhəmiyyət kəsb edir. Sosial müdafiəyə ehtiyacı olan kateqoriyaya aid insanlar, o cümlədən qaçqınlar və məcburi köçkünlərin, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin, hərbçilərin mənzillərlə təmin olunması sahəsində də dövlət siyasəti uğurla davam etdirilir.

Musa Quliyev pandemiya dövründə parlamentdə iclasların səmərəli və keyfiyyətli keçirilməsinə göstərdiyi diqqət və qayğıya görə Milli Məclisin Sədri Sahibə Qafarovaya komitə adından minnətdarlığını ifadə edib.

Sonra komitə sədri diqqətə çatdırıb ki, 2020-ci il yaz və növbədənkənar sessiyaları ərzində komitənin 12 iclası keçirilib, 17 qanun layihəsi müzakirə olunaraq Milli Məclisə tövsiyə edilib. Həmin qanun layihələri Milli Məclisdə qəbul edilib.

Ötən dövr ərzində komitəyə 94 sənəd, o cümlədən vətəndaşlardan 78 ərizə, nazirlik və idarələrdən 16 cavab məktubu daxil olub. Komitənin ünvanına daxil olan ərizə və şikayətlər ünvanlı sosial yardım, işsizlik, mənzil və digər məsələlərlə bağlı olub. Komitə sədri tərəfindən onlayn qaydada 32 nəfər vətəndaş qəbul edilib. Qəbullar zamanı qaldırılan məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görülüb.

2020-ci il payız sessiyasında görüləcək işlər barədə məlumat verən komitə sədri bildirib ki, bu müddətdə "Turizm haqqında", "Xeyriyyəçilik fəaliyyəti haqqında", "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun büdcəsi haqqında", "Azərbaycan Respublikası üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikası üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri müzakirəyə çıxarılacaq.

Sessiya ərzində "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun icrası barədə, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun icrasının monitorinqi, "Məşğulluq haqqında" qanunun təmin olunması və qeyri-formal məşğulluğun aradan qaldırılması mövzularında dinləmələrin keçirilməsi nəzərdə tutulub.

Komitə üzvləri Jalə Əliyeva, İlham Məmmədov, Arzu Nağıyev, Ziyad Səmədzadə, Əziz Ələkbərov, Soltan Məmmədov, Məlahət İbrahimqızı çıxış edərək koronavirus pandemiyası ilə mübarizə sahəsində Azərbaycan Prezidentinin həyata keçirdiyi bütün tədbirləri fəal surətdə dəstəklədiklərini, bu istiqamətdə görülən işlərin vətəndaşlar tərəfindən layiqincə qiymətləndirildiyini bildiriblər. Deputatlar 2020-ci il yaz və növbədənkənar sessiyalarda komitənin fəaliyyətinin qənaətbəxş olduğunu qeyd ediblər. Komitənin 2020-ci il payız sessiyası üçün işlər planını təsdiqləyiblər.

Sonra parlament Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin sektor müdiri Adil Vəliyev bildirib ki, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi Azərbaycan Prezidentinin "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanına uyğun olaraq hazırlanıb. Bu məqsədlə Məcəllənin 102.4.4-cü maddəsi ləğv olunur, 102.3-cü maddəsinə müvafiq düzəliş edilir.

Qeyd edildi ki, birinci oxunuşda təqdim olunmuş "Təhsil haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlara təklif edilən düzəlişlər də Prezident İlham Əliyevin yuxarıda adı çəkilən fərmanına uyğun olaraq hazırlanıb və valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Qanunlara ediləcək dəyişikliyə əsasən, övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə, özəl ali və orta ixtisas təhsili müəssisələrində və elmi təşkilatın magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulur.

Digər bir layihə - "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) sənəd isə uşaqları övladlığa götürən ailələri dəstəkləmək məqsədi ilə hazırlanıb. Layihədə yeni sosial müavinət növü - övladlığa götürülən uşağa görə müavinət müəyyən edilir, onun verilmə şərtləri, qaydası və bir sıra digər məsələlər tənzimlənir. Qeyd olunur ki, müavinət valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 3-18 yaş arası uşağı, o cümlədən 0-18 yaş arası sağlamlıq imkanları məhdud uşağı övladlığa götürən şəxsə övladlığa götürülən hər bir uşağa görə (uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi əsasında) təyin ediləcək. Müavinətin ödənilməsi uşağın 18 yaşınadək davam edəcək. Müavinətin təyinatına 2021-ci il yanvarın 1-dən başlanacaq.

Deputatlar Məlahət İbrahimqızı və Vüqar Bayramov qanun layihələri barədə öz fikirlərini bildiriblər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Fərhad Ələkbərov, DOST Agentliyinin departament müdiri Cavid Şahmalıyev ölkəmizdə uşaqların övladlığa götürülməsi sahəsində vəziyyət və statistikanı diqqətə çatdırıblar.

Komitə sədrinin müavini Məlahət İbrahimqızı gündəliyin növbəti məsələsini təqdim edərkən bildirib ki, "Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 30 dekabr tarixli Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu dörd qurum - Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Sosial Xidmətlər Agentliyi yaradılıb. Bununla bağlı Əmək Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "İşsizlikdən sığorta haqqında" və "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanunlarda dəyişikliklər nəzərdə tutulub. Bu qanunların bir sıra maddələrində "müvafiq icra hakimiyyəti orqanı" sözlərinin "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilməsi təklif olunur. Belə ki, bu sənədlərdə nəzərdə tutulan səlahiyyətləri publik hüquqi şəxs statuslu Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Sosial Xidmətlər Agentliyi həyata keçirəcək.

Həmin qanunlarla bir paketdə daxil olan "Dövlət qulluğu haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən isə, "Dövlət orqanı anlayışı" maddəsindən dövlət orqanının Dövlət Sosial Müdafiə və İşsizlikdən sığorta fondlarının büdcəsindən maliyyələşdirilməsi müddəası çıxarılır. Bu dəyişiklik həmin qurumların publik hüquqi şəxsə çevrilməsi və dövlət orqanı statusunu itirməsi ilə bağlıdır.

Sonra komitə üzvü Rauf Əliyev Əmək Məcəlləsində, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Uşaq hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, qanunlara uyğunlaşdırma xarakterli bir sıra dəyişikliklər təklif olunur. Bu dəyişikliklərdə 18 yaşına çatmamış işçilərə əməkhaqqı əvəzinə natural formada energetik içkilərin verilməsinin qadağan edilməsi, yaşı 18-dən az olan işçinin əməyinin tətbiqinin qadağan edildiyi iş yerlərinin dairəsinin genişləndirilməsi ilə bağlı və digər məqamlar ehtiva olunur.

Deputat İlham Məmmədov iclasda Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim etdi. Bildirildi ki, sənəd "Təhsil haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2018-ci il 12 iyun və "Ümumi təhsil haqqında" 2019-cu il 29 mart tarixli Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hazırlanıb. Belə ki, "Təhsil haqqında" qanunun 6-1-ci maddəsi (Pedaqoji fəaliyyətlə məşğul olma) və "Ümumi təhsil haqqında" qanunun 27-ci maddəsi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ olan şəxslərin, eləcə də bu fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərin dairəsini müəyyənləşdirir. Adıçəkilən qanunlarda bununla bağlı müvafiq düzəlişlər nəzərdə tutulub.

Komitə üzvləri gündəlikdəki qanun layihələrini birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

# AŞ PA-da Azərbaycandan Türkiyəyə dəstək

"Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf strategiyası nəticəsində bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan-Türkiyə münasibətləri sürətlə inkişaf edir. Bu münasibətlərin yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir. Azərbaycan və Türkiyə bir-birini beynəlxalq səviyyədə hər zaman dəstəkləyib və dəstəkləyəcək. Bunun ən parlaq nümunələrindən biri altı il əvvəl Praqada dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən sammitdə baş vermişdi. Ermənistanın o vaxtkı prezidenti Serj Sarkisyan orada fürsətdən istifadə edərək Türkiyəyə hücum edən zaman Azərbaycan Prezidenti İlham Əliyev demişdi: "Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur, ancaq mən buradayam..."

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib.

Səməd Seyidov deyib ki, qardaş ölkələrimiz hər zaman bir olub və olacaq. Eyni prinsip əsasında AŞ PA-da "Zeytun budağı" əməliyyatı zamanı Türkiyəyə qarşı çıxanlara cavab olaraq Azərbaycan Türkiyənin yanında oldu və yüksək tribunalardan qardaş ölkəyə dəstək verdi. Azərbaycan Türkiyəni həmçinin "Barış bulağı" əməliyyatında da dəstəklədi.

"Azərbaycan ilə Türkiyə hər zaman bir-birinin yanındadır. Lazım olan anda, lazımi yerdə bir-birimizə dəstək verib, istər hərbi mövzuda və ya xarici siyasətdə də bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Elə dünən, sentyabrın 8-də AŞ PA-nın Siyasi işlər və demokratiya komitəsinin onlayn iclası zamanı Tovuz hadisələri müzakirə olunanda Türkiyə yenə də ölkəmizin ərazi bütövlüyünü dəstəkləyərək Azərbaycanın yanında olduğunu bildirdi.

Ölkələrimiz arasında qardaş əlaqələri son dövrdə daha da yüksək səviyyədə inkişaf etməkdədir. Mühüm bir nümunəni qeyd edim. Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirini qəbul edərkən Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda baş verən gərginliyə toxundu, Türkiyənin Azərbaycana təkcə dost və tərəfdaş deyil, həm də qardaş ölkə olduğunu vurğuladı. Dövlət başçısı Azərbaycanın bütün məsələlərdə Türkiyənin yanında olacağını bildirdi. Bu bəyanat tezliklə öz əksini tapdı. Belə ki, sentyabrın 8-də AŞ PA-nın Siyasi işlər və demokratiya komitəsinin onlayn iclasında Milli Məclisin deputatları Şərqi Aralıq dənizi regionunda baş verən gərginlik mövzusunda Azərbaycanın qardaş Türkiyəyə tam dəstəyini ifadə etdilər", - deyə Səməd Seyidov bildirib.

Qeyd edək ki, Siyasi işlər və demokratiya komitəsinin onlayn iclasında ölkəmizin Türkiyəyə dəstəyini AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, nümayəndə heyətinin üzvləri Asim Mollazadə və Tural Gəncəliyev bildiriblər.

# Xarici İşlər Nazirliyi Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü ilə bağlı açıqlama yayıb

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü ilə bağlı açıqlama yayıb. AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir:**

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 2020-ci il mayın 28-də qəbul etdiyi 74/275 saylı qətnaməyə uyğun olaraq, sentyabrın 9-u Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü elan olunub.

Uşaq Hüquqları Konvensiyasının və onun Uşaqların Silahlı Münaqişələrə cəlb edilməsinə dair Əlavə Protokolunun, habelə 1949-cu il Müharibə Qurbanlarının Müdafiəsi üzrə Cenevrə Konvensiyalarının tərəfdaşı olan Azərbaycan Respublikası qətiyyətlə və davamlı şəkildə uşaq hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsinə və silahlı münaqişələrdən əziyyət çəkən uşaqların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş beynəlxalq səylərə dəstək verir.

Ermənistanın Azərbaycana qarşı davam edən silahlı təcavüzü ölkəmizin təhsil infrastrukturuna ciddi ziyan vurub. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində 1107 təhsil müəssisəsi və 855 uşaq bağçası tamamilə məhv edilib.

Etnik təmizləmə siyasəti nəticəsində bütün azərbaycanlılar, o cümlədən məktəblilər, tələbələr və müəllimlər Ermənistandakı doğma torpaqlarından və Azərbaycanın işğal olunmuş ərazilərindən didərgin salınıblar. Qaçqın və məcburi köçkün düşmüş on minlərlə azərbaycanlı oğlan və qız bu vəziyyətdən irəli gələn ciddi problemlərin təsiri altında təhsil hüquqlarını həyata keçirməyə davam edirlər.

Təmas xətti boyunca yaşayan bir çox məktəblilər rəsmi atəşkəs rejiminə baxmayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən heç bir fərq qoyulmadan atəşə məruz qalmaq təhlükəsi altında davamlı olaraq dərslərində iştirak edirlər. Belə ki, 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Azərbaycanın Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarında bir çox məktəb ciddi ziyan gördü, Ağdam rayonunun Sarıcalı kəndində 220 şagirdin təhsil aldığı orta məktəb məhv edildi.

Sentyabrın 9-nu Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü kimi dünya ictimaiyyəti ilə birgə qeyd edərək, azərbaycanlı məktəblilərə qarşı törətdiyi müharibə cinayətlərinə görə Ermənistanın məsuliyyət daşıdığını vurğulayırıq. Eyni zamanda bu əlamətdar günün məqsədinin həyata keçirilməsi kontekstində bütün günahkarların ədalət qarşısına çıxarılması vasitəsilə yuxarıda göstərilən cinayətlərin cəzasızlığına son qoyulmasının son dərəcə vacibliyini vurğulayırıq.

Ermənistan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsinin (822, 853, 874 və 884) tələblərini yerinə yetirməli, on minlərlə azərbaycanlının təhlükəsiz təhsil almaq hüququnun həyata keçirməsinə imkan yaratmalıdır. Azərbaycan bu xüsusda beynəlxalq birliyin dəstəyinə və həmrəyliyinə güvənir.

# MDB Ticarət-Sənaye Palataları Rəhbərləri Şurasının 18-ci onlayn iclasında Azərbaycan da iştirak edib

**Daşkənddə Müstəqil Dövlətlər Birliyi (MDB) Ticarət-Sənaye Palataları Rəhbərləri Şurasının 18-ci onlayn iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasa MDB Ticarət-Sənaye Palatalarının rəhbərləri qatılıblar.**



Tədbirdə ölkəmizi Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti Niyaz Əlizadə, fəxri qonaq qismində isə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının prezidenti Məmməd Musayev iştirak ediblər.

MDB İcraiyyə Komitəsinin sədri, icraçı katib Sergey Lebedev, bu il şuraya sədrlik edən Özbəkistan nümayəndəsi, bu ölkənin Ticarət-Sənaye Palatasının sədri Adxam İkramov iclas iştirakçılarını salamlayıb, MDB çərçivəsində əlaqələrin daha da genişləndirilməsinin vacibliyinə toxunublar. N.Əlizadə pandemiya ilə bağlı Azərbaycanda karantin rejiminin tətbiq edildiyi, bununla bağlı ölkə iqtisadiyyatında yaranan durğunluq haqqında söhbət açıb, MDB çərçivəsində əməkdaşlığın inkişafı məsələlərinə toxunub. O, Azərbaycanla Özbəkistan arasında əlaqələrin daha da inkişafının vacibliyindən danışıb. Sonra MDB-nin üzvü olan digər ölkələrin nümayəndələri əməkdaşlıq məsələləri haqqında söhbət açıblar.

M.Musayev isə MDB çərçivəsində ikitərəfli əlaqələrin inkişafı, Azərbaycanla Özbəkistanın həyata keçirəcəkləri birgə layihələr haqqında məlumat verib. Sonra iclasın yekun sənədi imzalanıb.

Tədbirdə müşahidəçi kimi Azərbaycanın Özbəkistandakı səfirliyinin konsulu İlqar İbrahimov da iştirak edib.

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

Azərbaycana səfəri çərçivəsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu ziyarət edərək, qurumun prezidenti Günay Əfəndiyeva ilə görüşüb.

Fonddan AZƏRTAC-a bildirilib ki, görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibinin müavinləri Qismət Gözəlov, Sultanbek Rayev və nümayəndə heyətinin digər üzvləri də iştirak ediblər.

Fondun prezidenti Günay Əfəndiyeva qonaqları salamlayaraq, Türk Şurasının nüfuzunun qlobal miqyasda gücləndirilməsini məmnunluqla qeyd edib və təşkilatlar arasında əməkdaşlığın vacibliyini vurğulayıb. Fondun fəaliyyətindən söz açan Günay Əfəndiyeva türkdilli xalqların ortaq irsinin təbliği çərçivəsində keçiriləcək yeni layihələr barədə danışıb. Günay Əfəndiyeva fondun binasının Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə quruma ayrılan vəsait hesabına ərsəyə gəldiyini vurğulayaraq, yaxın gələcəkdə türkdilli təşkilat rəhbərlərinin Koordinasiya İclasının qurumun binasında keçirilməsini təklif edib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev Türk Şurasının pandemiya şəraitində keçirdiyi tədbir və görüşlərdən danışıb. O, təşkilatın nüfuzunun beynəlxalq aləmdə artırılmasında Azərbaycanın aktiv sədrliyini və vacib rol oynadığını qeyd edib. Bağdad Amreyev fondun fəaliyyətini yüksək qiymətləndirərək, Türk Şurası ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və digər türkdilli təşkilatlar arasında əlaqələrin genişləndirilməsinə fəal dəstək verəcəyini bildirib.

Görüşdə Türk Şurası ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu arasında gələcək əməkdaşlığın perspektivləri, qarşıdakı tədbirlərin koordinasiyası və ardıcıllığı, birgə sənədlərin qəbulu və imzalanması, Türk Şurasının növbəti zirvə görüşü, eləcə də Türkdilli təşkilatların rəhbərlərinin Koordinasiya İclası ilə bağlı mövzular müzakirə edilib.

Qonaqlar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun binası ilə tanış olublar. Sonda tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim edilib.

# Paşinyanın pandemiyaya qarşı mübarizəsi iflasa uğrayıb

## Ermənistan hər yüz min adama düşən koronavirus xəstələrinin sayına görə Avropada liderdir

*Əvvəli 1-ci səh.*

"Statista.com" portalı Ermənistanın hər yüz min adama düşən koronavirus xəstələrinin sayına görə Avropada lider olduğunu açıqlayıb. Belə ki, Ermənistanda hər yüz min adama düşən xəstələrin sayı 1490.16-dır.

Səhiyyə təşkilatçısı, həkim Gevorq Qriqoryan yerli mətbuata müsahibəsində ölkəsinin hər yüz min adama düşən koronavirus xəstələrinin sayına görə Avropada birinci yerdə olmasını rüsvayçılıq adlandırıb. Qeyd edib ki, hökumətin virusa qarşı mübarizəsi tamamilə iflasa uğrayıb: "Koronavirusla mübarizənin tam iflasa uğradığı haqda mən hələ aprelin ortalarında, fövqəladə vəziyyət rejiminin uzadılmasına baxmayaraq, yoluxanların sayının artmaqda olduğu vaxtlarda danışmışdım. Bizim hökumətin koronavirusla mübarizəsinin iflasa uğraması faktdır, müzakirə olunmur. Problem odur ki, biz səhiyyə sistemimizlə birlikdə beynəlxalq ictimaiyyət qarşısında biabır olmuşuq".

Səhiyyə eksperti əlavə edib ki, Ermənistan dörd qonşusundan ikisi ilə sərhədlərinin bağlı olduğu halda öz sərhədlərini koronavirusdan qoruya bilməyib, eyni zamanda virusun bu cür geniş yayılmasının qarşısını almaqda aciz qalıb. Onun sözlərinə görə, virusa qarşı mübarizə tədbirlərini hələ yanvar ayında, Ümumdünya Səhiyyə Təşkilatı virusun insandan insana ötürüldüyü barədə bəyanatından dərhal sonra görmək, sərhədləri bağlamaq, ölkəyə qayıdan turistləri karantində yerləşdirmək lazım idi.

Bildirib ki, Ermənistan səhiyyə sisteminin rəhbərləri başda nazir Arsen Torosyan, xəstəliklərə nəzarət və profilaktika üzrə Milli mərkəzin rəhbərliyi olmaqla birbaşa efirdə bildirdilər ki, karantin effektiv deyil, sərhədləri bağlamaq düzgün deyil və s. Onlar öz addımları ilə virusun ölkəyə keçməsi ilə mübarizəni iflasa uğratdılar. Həkim baş nazir Paşinyanın hərəkətlərini də xatırladıb. Deyib ki, ölkə rəhbəri virusla mübarizə tədbirləri görmək əvəzinə həmin vaxt təbliğat kampaniyası aparırdı və koronavirusa evdə çəkilmiş araqla qalib gəlməyin mümkünlüyü haqda danışırdı.

"4rd.am" saytı yazır ki, bir çox ölkələrdə olduğu kimi, Ermənistanda da baha qiymətə satılmağına baxmayaraq, xalqdan maska taxmaq tələb edilir. Bu qanunu pozanlar isə 10 min dram cərimə olunurlar. Lakin maraqlı da olsa, sadə ermənilər üçün bu qədər ağrılı cəriməolunmalara baxmayaraq, statistika ölkədə qayda pozuntularının sayının hər gün çoxaldığını bildirir. "Əgər bir ay əvvəl gündəlik 1000-1500 pozuntu hadisəsi qeydə alınırdısa, indi bu göstərici 2500-2800 arasında dəyişir. Yəni cəzalar, əslində, maska taxmaq intizamını, ümumiyyətlə, artırmır". Politoloq Artur Atayev isə vəziyyəti şərh edərək bildirirdi ki, Ermənistan hakimiyyətinin inamsız hərəkətləri etiraz əhval-ruhiyyəsinin güclənməsinə gətirib çıxara bilər. Vurğulayırdı ki, Paşinyan hökumətinin reytinqi karantinə qədər də düşürdü, indi də düşür. Bunun hansı nəticələrə gətirib çıxaracağı məlum deyil. Yaxın gələcəkdə etiraz aksiyaları başlanmasını istisna etmirəm. Bir sıra siyasi qüvvələr, ilk növbədə, vaxtilə Paşinyanın silahdaşları olmuş, lakin indiki hakimiyyətdə özlərinə yer tapa bilməmiş adamlar bu vəziyyətdən istifadə etməyə hazırdırlar. Ambisiyalı gənclər tezliklə vəziyyəti daha da qızışdıra bilərlər.

Bütün bunlar ondan xəbər verir ki, Ermənistanı qarşıdakı dövrdə daha böyük böhran gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan avqustda “OPEC +” üzrə öhdəliyini artıqlaması ilə yerinə yetirib




Bu ilin avqust ayında ölkə üzrə gündəlik neft (kondensantla birlikdə) hasilatı 669,1 min barel olub. Bunun 584,6 min barelini xam neft, 84,5 min barelini kondensat təşkil edib. Xam neftin 460,4 min bareli “Azəri-Çıraq-Günəşli”, 124,2 min bareli isə SOCAR (Azneft” İB, BM və ƏŞ) üzrə hasil edilib.

“OPEC +” üzrə gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən 7,7 milyon barel ixtisarı prosesi çərçivəsində Azərbaycan avqustda sutkada xam neft hasilatını 133,4 min barel azaldıb.

“Əməkdaşlıq Bəyannaməsi”nə əsasən, 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barel olan Azərbaycan cari ilin avqust-dekabr aylarında xam neft istehsalını sutkada 131 min barel azaltmaqla 587 min barel həcmində saxlamalıdır. Öhdəliklərin icrası məqsədilə gündəlik xam neft hasilatı 2018-ci ilin oktyabr ayındakı səviyyələrdən, AÇG-də 567 min barreldən azaldılaraq 461 min bareldə, SOCAR (Azneft” İB, BM və ƏŞ) üzrə isə 151 min bareldən ixtisar edilərək 126 min barel həcmində saxlanılmalıdır.

Qeyd edək ki, 12 aprel tarixli “OPEC +” razılaşmasının gündəlik xam neft hasilatının ümumilikdə 7,7 milyon barel azaldılması ilə bağlı ikinci mərhələsi 1 avqust-31 dekabrı əhatə edir.



## Kəndlərin su problemi həll olunur

Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, Ağstafada əhalinin dayanıqlı və təmiz içməli su ilə təmin olunması üçün zəruri tədbirlər görülür. Hazırda bu istiqamətdə rayonun Vurğun qəsəbəsi, Köçəsgər və Həsənsu kəndlərində işlər sürətlə davam etdirilir.

Eynallı kəndində Ağstafa su kanal sahəsinin balansında olan 2 ədəd subartezian nasosu bərpa olunmuşdur. Həsənsu kənd əhalisinin içməli su probleminin həlli ilə bağlı kəhriz xəttinə diametri 90 millimetr olan yeni su borularının çəkilişi də davam etdirilir. Köçəsgər kəndi istiqamətində sıradan çıxmış su boruları polietilen borularla əvəz edilmişdir. Vurğun qəsəbəsində isə əhalinin içməli su probleminin həlli məqsədilə yeni su xətti çəkilir.

Suvarmada yaranan çətinliklər də müxtəlif layihələr hesabına aradan qaldırılır. Bu məqsədlə həyata keçirilən tədbirlər nəticəsində Həsənsu nasos stansiyasının yenidən qurulması ilə üç kəndin əkin sahələri vaxtında və bol su ilə təmin olunur.

Ağstafa rayonu Aşağı Göycəli kənd sakini Həmid Vəliyev 9 hektar torpaq sahəsində taxıl, günəbaxan və bostan bitkiləri əkmişdi. Bütün arqotexniki tədbirlər vaxtında görülmüş, bununla da bol məhsulun əsası qoyulmuşdu. Amma növbə suvarmaya çatanda fermer problemlə üzləşmişdi. Havaların quraqlıq keçməsi ilə əlaqədar çəkilən zəhmətin hədər getməsi təhlükəsi yarandığından o, dövlət başçısına müraciət etmişdi. Bundan sonra çətinliyin aradan qaldırılması üçün tədbirlər görülməsinə başlanılmışdır. Nəticədə nəinki Həmid Vəliyevin təsərrüfatının, eləcə də kəndin 350 hektar əkin sahəsinin suvarılması mümkün olmuşdur.

Suvarmada yaşanan çətinlik Həsənsu çayı üzərindəki nasos stansiyasının əsaslı təmirindən sonra mümkün olmuşdur. 2000-ci ildə Aşağı Kəsəmən kəndinin 200 hektara yaxın əkin sahəsinin suvarılması üçün qurulan bir aqreqatlı nasos stansiyasının gücü təxminən üç dəfə artırılıb. İndi Həsənsu nasos stansiyasının hesabına Aşağı Kəsəmən kəndi ilə yanaşı, Aşağı Göycəli və Göycəlinin də əkin sahələri suvarılır. Gələcəkdə isə nasos stansiyasının gücünün daha da artırılması nəzərdə tutulmuşdur. Hazırda Həsənsu nasos stansiyası vasitəsilə həm bostanlar, həm də qarğıdalı sahələri suvarılır.

Fermer Emin Məhərrəmov da taxıl yığımından sonra qarğıdalı əkdiyi sahəni üçüncü dəfə suvarmağa hazırlaşır. Fermer bildirir ki, Həsənsu nasosu və beton kanalların vasitəsilə suvarma əvvəlki illərə nisbətən daha tez həyata keçirilir.

Qeyd edək ki, Ağstafa rayonunda ümumilikdə 18520 hektar sahə arx suyu ilə suvarılır. Bunun üçün nasos stansiyalarının təmiri ilə paralel olaraq meliorativ tədbirlər də görülür. Su itkisinin qarşısının alınması üçün torpaq kanallara beton üzlük çəkilir. İndiyə kimi 165 kilometr uzunluğunda suvarma arxına beton salınmışdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

**Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev Asxanakəran və Hamoşam inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində quruculuq, abadlıq işləri ilə tanış olmuşdur. Koronavirus pandemiyası ilə əlaqədar yerlərdə əhali ilə səyyar qəbul və görüşlərin dayandırılmasına baxmayaraq, sakinlərin müraciətlərinə əsasən rayonun yaşayış məntəqələrində sosial problemlərin həlli istiqamətində işlər davam edir.**




## Bölgələrdə sosial layihələrin icrası davam edir

Hələ ötən əsrin 60-70-ci illərində Lerik rayonu ərazisindən Asxanakəran və Hamoşam inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə çəkilən elektrik xəttinin istismar müddəti başa çatdığından bu kəndlərə elektrik enerjisi verilişində yaranan fasilələr əhalinin haqlı narazılığına səbəb olurdu. Problemin aradan qaldırılmasından ötrü rayon rəhbərliyi aidiyyəti qurumlarla birlikdə bu yaşayış məntəqələrinin Astara rayonundan elektrik enerjisi ilə təmin olunmasına nail olmuşdur. Bu məqsədlə Taxtanakəran kəndindən Motalayataq kəndinədək 13 kilometr uzunluğunda yeni 10 kv-luq elektrik xəttinin çəkilişi başa çatdırılmış və elektrik enerjisinin verilişinə başlanmışdır.

Rayon icra hakimiyyətinin köməyi ilə Hamoşam və Rıvadila kəndlərində Bəşərü çayı üzərində uzunluğu 12 metr, eni 4 metr olan dəmir konstruksiyalı iki avtomobil körpüsü tikilmiş, bu günlərdə istifadəyə verilmişdir.

Toradi kəndində Baba Rəsul ziyarətgahına gedən avtomobil yolunda 1200 mm-lik suötürücü boru qoyularaq 350 metrlik yolda təmir işləri aparılmış, çınqıl döşənmişdir.

Hamoşam kəndində Yaponiya səfirliyi tərəfindən inşasına başlanmış həkim məntəqəsinin tikintisi isə hazırda davam edir. Kənd sakinləri bu yüksək diqqət və qayğıya görə cənab Prezidentə dərin minnətdarlıqlarını bildirmiş, əhalinin arzu və təkliflərinə əsasən problemlərin həllinə kömək göstərildiyinə görə razılıq etmişlər. İcra hakimiyyətinin başçısı Qəzənfər Ağayev koronavirus pandemiyası dövründə yaranmış çətinliklərə baxmayaraq, bütün ölkədə olduğu kimi, bu rayonda da sosial layihələrin icrasının davam etdiyini bildirmişdir. Kənddə həyata keçirilən quruculuq, abadlıq işlərində iştirak edən sakinlərə minnətdarlıq etmişdir.

İcra başçısı ölkə iqtisadiyyatının ahəngdar inkişafının təmin edilməsi üçün sahibkarlara, iş adamlarına dövlət tərəfindən böyük dəstəyin olduğunu, eyni zamanda, aztəminatlı ailələrin geniş sosial paketlə əhatə edildiyini qeyd etmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, qabaqlayıcı tədbirlər nəticəsində xəstəliyin geniş yayılmasının qarşısının alındığını, bütün bunların insanların sağlamlığının qorunmasına xidmət etdiyini bildirmişdir. Dünyanın ən güclü dövlətləri bu xəstəliklə mübarizədə böyük itkilər verdiyi halda, Azərbaycan xalqı və dövləti cüzi itkilərlə bu təhlükəni adlamaqdadır.

Buna baxmayaraq, arxayınlaşmamalı, Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə ciddi riayət edilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

## Azərbaycan “WSIS-2020” çərçivəsində keçirilmiş Nazirlər Toplantısında təmsil edilib

Beynəlxalq Telekommunikasiya İttifaqının təşkilatçılığı ilə keçirilən İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti (WSIS-2020) çərçivəsində virtual formatda Nazirlər Toplantısı keçirilib.

Tədbirin əsas müzakirə mövzusu rəqəmli fərqliliyin aradan qaldırılması - rəqəmli keçidin sürətləndirilməsi üçün qlobal əməkdaşlıq mexanizmlərinə dair məsələlər olub. Nazirlər Toplantısında ölkəmizi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə təmsil edib.

Virtual, “dəyirmi masa”, iştirakçılarını salamlayan E.Vəlizadə hazırda bəşəriyyətin mübarizə apardığı koronavirus pandemiyasının əlaqələrin əhəmiyyətini artırdığını və rəqəmsal fərqliliyin aradan qaldırılması məsələsinin vacibliyini ortaya çıxardığını deyib.

Nazir müavini Azərbaycanda İKT sektoru da daxil olmaqla, yüksək texnologiyaların inkişafının dövlət siyasətinin prioriteti olduğunu bildirib.

“Ölkəmizdə həyata keçirilən layihələr daxili ehtiyacları nəzərə alır, eyni zamanda, regional istifadə imkanlarını da təmin edir. Məsələn, peyk proqramını uğurla həyata keçirən Azərbaycan, ilk növbədə, milli tələbatı ödəməklə yanaşı, Avropa, Asiya, Orta Şərq və Afrika da daxil olmaqla, geniş coğrafiya ölkələri üçün peyk xidmətləri göstərir”, - deyə E.Vəlizadə vurğulayıb.

Çıxışının sonunda nazirlik rəsmisi EPEG (Europe-Persia Express Gateway) fiber-optik xətt və TASIM - Trans-Avrasiya Super İnformasiya Magistralı kimi layihələrin bölgədəki rəqəmsal fərqliliyin azaldılmasına xidmət etdiyini söyləyib.

## Banklar Assosiasiyası rəyasət heyətinin növbəti iclası keçirilib

Azərbaycan Banklar Assosiasiyasında (ABA) maliyyə-bank sektorunun mövcud vəziyyəti müzakirə olunub.

Assosiasiyanın rəyasət heyətinin növbəti iclasının gündəliyində duran əsas məsələlər sırasında özünüməşğulluq proqramı ilə əlaqədar ABA-dan köçürüləcək vəsait hesabına banklar tərəfindən əlavə 400 vətəndaşa aktivlərin təqdim edilməsi işinin təşkili, Dövlət Sosial Müdafiə Fondunun “Özünüməşğulluq” layihəsində biznes-planların Qiymətləndirmə Komissiyasının tərkibinə Bakı və regionlar üzrə nümayəndələrin ayrılması, “Xəzinədarlıq və Fondların İdarəedilməsi üzrə ekspert qrupu”nun sədrliyinə “Kapital Bank” ASC-nin Xəzinə departamentinin direktoru Fərid Əliyevin namizədliyinin müzakirəsi, Mərkəzi Bankdan Banklar Assosiasiyasına daxil olmuş Dövlət Turizm Agentliyinin müraciətinin müzakirəsi yer alıb.

İclas zamanı qlobal müstəvidə yaranmış vəziyyətlə əlaqədar maliyyə-bank sektorunun mövcud vəziyyəti, həmçinin gündəlikdə yer alan cari məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, görülən işlərlə bağlı hesabat dinlənilib.

Xatırladaq ki, ABA 1990-cı ildə kommersiya bankları tərəfindən təsis edilib. Əsas məqsədi üzv-təşkilatların maraqlarını təmsil etmək, onların müxtəlif növ işgüzar xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yardım göstərmək və fəaliyyətlərini əlaqələndirməkdən ibarət olan təşkilatın hazırda 29 (25 bank və 4 qeyri-bank təşkilatı) üzvü var.

## Beynəlxalq Ticarət Mərkəzi Azexport portalı ilə birgə həyata keçirilən layihədən yazıb

Birləşmiş Millətlər Təşkilatı tərəfindən yaradılan Beynəlxalq Ticarət Mərkəzi (İTC) Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı ilə bərabər həyata keçirdiyi layihə barədə öz rəsmi səhifəsində məqalə dərc edib.




Məqalədə “Ticarətə Hazır” layihəsi çərçivəsində Azexport.az portalının və İTC-nin birgə tərəfdaşlığı ilə keçirilən “e-Logistics” təlimində sahibkarlara logistika əməliyyatları, logistika infrastrukturu, satınalma prosedurları, COVID-19 dövründə logistikanın təşkili kimi mövzularda aktual məlumatların təqdim olunduğu və əməkdaşlığın məhsuldar olduğu bildirilib.

Azexport.az portalının rəhbəri Ayxan Qədəşov bildirir ki, Birləşmiş Millətlər Təşkilatı və Dünya Ticarət Təşkilatı tərəfindən yaradılan Beynəlxalq Ticarət Mərkəzi (International Trade Center) Azexport portalı ilə bərabər həyata keçirilən layihə barədə növbəti məqaləni dərc etməsi portalın nüfuzlu beynəlxalq qurumlar tərəfindən regionda ciddi tərəfdaş kimi qəbul olunması deməkdir: “Düşünürəm ki, qısa zaman ərzində minimum resursla beynəlxalq arenada nüfuzlu qurumlarla bərabər təmsil olunmanı portalın uğurlarından biri kimi də hesab edə bilərik”.

Qeyd edək ki, Azexport.az portalı Şərq Tərəfdaşlığı layihəsinin regionda “International Trade Center”-lə bərabər reallaşdırılmasında iştirak edən ən fəal tərəfdaşlardandır. “Ticarətə Hazır” layihəsi çərçivəsində “e-Commerce” və “e-Logistics” adı altında iki silsilə təlim təşkil olunub. Ümumilikdə təlimlərə 200-dən artıq sahibkar qatılıb. Onlardan 70 faizdən artıq iştirak göstəricisi olan şəxslərə “QR kod” qorunma nişanı ilə təchiz olunan elektron sertifikat təqdim olunub. Sahibkarlar tərəfindən onlayn təlim və seminarlara olan marağı nəzərə alaraq müxtəlif mövzuları əhatə edən bu tip tədbirlərin müntəzəm keçirilməsi nəzərdə tutulub.

## “İslahat İcmalı” Azərbaycan könüllülərinə həsr olunub

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) “İslahat İcmalı”nın xüsusi buraxılışı Azərbaycanda fəaliyyət göstərən könüllü təşkilatlarına həsr olunub.

İcmalda Azərbaycanda fəaliyyət göstərən könüllü təşkilatları, onların fəaliyyət istiqamətləri, görülən işlər barədə məlumat və fotoşəkillər təqdim edilib.

Mərkəzin İslahat Könüllüləri Təşkilatının rəhbəri Nərmin Rəhimli bildirib ki, Prezident İlham Əliyev gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci ilin ölkəmizdə “Könüllülər ili” elan olunmasına dair sərəncam imzalayıb. Bu il ərzində pandemiya şəraitinə baxmayaraq İslahat Könüllüləri, Regional İnkişaf İctimai Birliyi Könüllüləri, ASAN Könüllüləri, Könüllü DOST, “Könüllü gömrükçü” dəstəsi, Miqrasiya Könüllüsü, “Bir” Tələbə-Könüllü proqramı, Aqrar İnkişaf Könüllüləri, Könüllü Qida Nəzarətçisi və digər könüllü təşkilatları aktiv işlər görüb, müxtəlif mövzularda videokonfrans formatında təlim və seminarlar təşkil ediblər.

## Sulutəpə dairəsində müxtəlif səviyyəli yol qovşağı tikilir

Vətəndaşların mənzil başına vaxt itirmədən, rahat və təhlükəsiz çatmasını təmin etmək istiqamətində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Bakı şəhəri və şəhərətrafı ərazilərdə kompleks tədbirlər həyata keçirilir.

Aparılan işlərin davamı olaraq hazırda Sulutəpə dairəsində tıxac və ləngimələri aradan qaldırmaqla vətəndaşlarımızın rahat hərəkətinin təmin olunması üçün yol qovşağının inşasına başlanılıb. Qovşaq 2 yol ötürücüsündən ibarətdir. Yol ötürücüləri Biləcəri, Binəqədi, həmçinin Şamaxı və qeyd edilən istiqamətdə yerləşən qəsəbələrdən hərəkət edən avtonəqliyyat vasitələrinin dairədə sıxlıq və tıxac yaratmadan paytaxt istiqamətinə rahat və maneəsiz hərəkətini təmin edəcək. Bununla da sözügedən dairədə xüsusən günün gur saatlarında müşahidə edilən tıxac və ləngimələr tam aradan qaldırılmış olacaq. Yol ötürücüləri 3 və 4 aşırımlı olmaqla, uzunluqları 69 və 128, eni isə 9 metr təşkil edəcək. Hazırda körpülərin dayaqlarının inşası aparılır. Növbəti mərhələdə aşırım hissələrinin inşasına başlanılacaq. Layihə əsasında dairə ətrafında olan 2350 metr uzunluğa malik yolların təmiri, piyada səkilərinin yaradılması, 600 metrdən çox istinad divarlarının inşası nəzərdə tutulur.

Tikinti işləri tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə aparılır. Bunun üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.



## AXA baytarlıq xidmətlərinin təkmilləşdirilməsi ilə bağlı planları açıqlayıb

“Nazirlər Kabinetinin yeni qərarı ilə təsdiqlənmiş “Xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi məqsədilə dövlət büdcəsindən maliyyələşdirilən, dövlət sifarişi ilə göstəriləcək baytarlıq xidmətlərinin Siyahısı” heyvan sağlamlığı sahəsində xidmətlərin təkmilləşdirilməsi məqsədilə atılan addımdır”.



Bu fikirləri Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) sədri Mirzə Əliyev deyib. Qeyd edib ki, Prezidentin bu ilin aprelində imzaladığı “Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” fərmanla Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan baytarlıq məntəqələrinin 2022-ci ilədək mərhələli şəkildə ləğvi nəzərdə tutulur. Yeni qərar dövlət sifarişi əsasında özəl baytarlıq subyektlərinin (hüquqi və fiziki şəxslərin) göstərəcəyi xidmətlərin siyahısını özündə birləşdirir.

“Dövlət xüsusi təhlükəli xəstəliklərlə mübarizə məsuliyyətini öz üzərində saxlayır. Aqrar Xidmətlər Agentliyi ilə müqavilə əsasında baytarlar xüsusi təhlükəli xəstəliklərin diaqnozu, profilaktikası və müalicəsini həyata keçirəcəklər. Bu da həm sərbəst fəaliyyətə başlamış baytarların fəaliyyətinə dəstək olacaq, həm də daha çox baytar mütəxəssislə işləməyə imkan verdiyindən xidmətlərin keyfiyyətli icrasını təmin edəcək”, - deyə AXA sədri vurğulayıb.

M,Əliyev əlavə edib ki, növbəti addım olaraq AXA ilə baytarlıq subyektləri arasında bağlanacaq müqavilənin nümunəsi təsdiqlənəcək. Bundan başqa, baytarlıq subyektlərinin fəaliyyətini əlaqələndirmək məqsədilə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində onların qeydiyyatını və müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinin elektron qaydada izlənilməsini təmin edən Baytarlıq Xidmətləri Monitorinqi altsistemi formalaşdırılacaq.

# Biz birlikdə güclüyük!

## Həyata keçirilən zəruri tədbirlər müsbət bəhrəsini verir

### Pandemiyaya qarşı nümunəvi mübarizə yumşaldılmaların ardıcıl xarakter almasına imkan yaradıb



*Əvvəli 1-ci səh.*

### Dövlətin əsas prioriteti vətəndaşların sağlamlığı və təhlükəsizliyidir

Son aylarda Azərbaycanda COVID-19-a yoluxma halında müsbət dinamikanın əldə edilməsi onu deməyə əsas verir ki, ölkəmiz ilk gündən etibarən pandemiyaya qarşı strategiyasını düzgün qurub.

Hökumətin gördüyü operativ və səmərəli tədbirlər, qəbul edilən qərarlar, müasir tibbi sənayenin qurulması, qısa müddətdə ixtisaslaşmış xəstəxanaların açılması, yüksək səviyyədə tibbi xidmətlərin təşkil olunması, müxtəlif ölkələrdən ixtisaslı, təcrübəli həkimlərin Azərbaycana gətirilməsi və onların virusla birbaşa mübarizə prosesinə qoşulması, yerli mütəxəssislərlə təcrübə mübadiləsi aparmaları və digər effektiv tədbirlər bugünkü ümumi uğuru təmin edib.

Mütəxəssislərin də bildirdiyi kimi, xəstəliyin erkən aşkarlanması yoluxmanın qarşısını almaqda müstəsna əhəmiyyət daşıyır. Odur ki, dövlətimizin bu istiqamətdə zamanında gördüyü tədbirlər öz müsbət nəticəsini verib. Qısa zamanda müasir laboratoriyaların sayının 45-ə çatdırılması və ötən müddət ərzində 1 milyona yaxın testin keçirilməsi ölkəmizin adambaşına düşən test sayına görə dünyada ilk sıralarda yer almasına rəvac verib.

Hökumət səhiyyə sahəsi ilə paralel olaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də əhəmiyyətli proqramlar həyata keçirib. Belə ki, indiyə qədər pandemiya ilə əlaqədar sosial dəstək tədbirləri 5 milyon vətəndaşı əhatə edib.

Sadalanan bütün bu faktlar dövlətin vətəndaşların sağlamlığına göstərdiyi diqqətin və qayğının bariz nümunəsidir.

### Məhdudiyyətlər mərhələ-mərhələ aradan qaldırılır

Həyata keçirilən sistemli tədbirlər planı sayəsində vətənimizdə yumşaldılma tədbirləri də ardıcıl xarakter alıb. Avqustun 5-dən sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılmasına, bir sıra məhdudiyyətlərin aradan qaldırılmasına start verilib. Ötən çərşənbə axşamından isə yumşalmaların növbəti mərhələsinin tətbiqinə başlanılıb. Sentyabrın 8-dən ölkədə karantin rejimi ilə bağlı bir sıra məhdudiyyətlər aradan qaldırılıb. Restoranların daxildə xidmət göstərmələrinə icazə verilib. Həmçinin ictimai iaşə müəssisələri gecə saat 00:00-a qədər fəaliyyət göstərə biləcək. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyət də götürülüb. Lakin avtobus və qatar ilə şəhərlərarası sərnişin daşımaya tətbiq edilən qadağa hələ də qüvvədədir. Yəni vətəndaşlar yalnız şəxsi avtomobilləri ilə bölgələrə gedib-gələ biləcəklər.

Təbiidir ki, rayonlara gediş-gəlişin açılması hotel və mehmanxanalara tələbatı da artıracaq. Bəs həmin məkanlarda yoluxma riskini azaltmaq üçün hansı tədbirlər görüləcək? Bununla bağlı Azərbaycan Hotel Assosiasiyasından bildirilib ki, bu vəziyyətdə nəzərdə tutulmuş qaydalara daha ciddi əməl edilməlidir. Çünki insanların bölgələrə axın edəcəyi gözlənilir. Mehmanxanalarda sanitar gigiyenik qaydalara əməl edilməli, girişdə hərarət ölçülməli, dezinfeksiya vasitələrindən istifadə olunmalı, xidməti heyət qoruyucu vasitələrlə təmin edilməlidir.

Bununla yanaşı, hər bir hoteldə sanitar tələblərə cavab verən karantin otağı olmalıdır. Virusun aşkar edildiyi işçi və ya qonaq bu otaqda karantinə alınmalı, TƏBİB-lə əlaqə saxlandıqdan sonra həmin şəxs yaxında olan sağlamlıq mərkəzinə çatdırılmalıdır.



### Toy və nişan mərasimlərinin müəyyən qaydalar çərçivəsində baş tutması mümkündür

Deputat Rəşad Mahmudov isə müsahibəsində bildirib ki, toy və nişan mərasimləri müəyyən qaydalar çərçivəsində və nəzarət mexanizmlərinin qurulması şərti ilə baş tuta bilər: "Düşünürəm ki, yoluxma sayında davam edən hazırkı müsbət dinamika, eləcə də insanların virusla mübarizədə daha məlumatlı və ehtiyatlı davranması müəyyən qaydalar çərçivəsində toy və nişan mərasimlərinin keçirilməsini də gündəmə gətirir".

O bildirib ki, mövcud vəziyyət nəzərə alınaraq, vətəndaşlara zərər vermədən belə mərasimlərin keçirilməsinə imkan yaradılmalıdır: "Toy və nişan mərasimlərinə icazə veriləcəyi təqdirdə insanlar virusa yoluxmamaq üçün ehtiyatlı davranmalı, reallıqları nəzərə almalıdırlar. Keçiriləcək mərasimlərə dəvət olunacaq qonaqların sayının az olması əsas şərtlərdən biri olmalıdır".

Deputat hesab edir ki, payız aylarından sonra COVID-19 virusunun insanlarda yaratdığı qorxu getdikcə azalacaq: "'Təcrübə göstərir ki, dünyada tətbiq edilən karantin rejimləri tibbi baxımdan müsbət nəticə verməklə yanaşı, sosial, iqtisadi və psixoloji çətinlikləri ön plana çəkir. Amma biz vətəndaş olaraq ehtiyatlı davranmağa davam etməliyik. Toy və mərasimlərlə bağlı son qərar təbii ki, Operativ Qərargah tərəfindən ümumi vəziyyət təhlil edildikdən sonra veriləcək".

### Qrip vaksini orqanizmin COVID-19-a qarşı mübarizəsinə təkan verə bilər

Qarşıdan payız mövsümü gəlir və bu fəsildə insanların qrip və ona bənzər xəstəliklərə yoluxma ehtimalı artır. TƏBİB-dən verilən məlumata görə, payızda ölkəmizə qrip əleyhinə vaksinlərin gətirilməsi və tətbiq edilməsi planlaşdırılır. Mütəxəssislər risk qrupunda olanların vaksinasiyaya cəlb edilməsini tövsiyə edirlər.

Qurumun İnfeksion İşçi Qrupunun üzvü Süleyman Kamilov deyib ki, bu vaksinlər insanlarda qrip xəstəliyinə qarşı immunitet formalaşdırır və təhlükəsizdir. Hətta bu, hamilə qadınlara da tövsiyə olunur. Vaksinasiya könüllü xarakter daşıyacaq.

Süleyman Kamilov onu da bildirib ki, qrip vaksini koronavirusa qarşı birbaşa müdafiə rolu oynamır. Amma immunitetin zəifləməsinin qarşısını alır. Bununla da orqanizmin COVID-19-a qarşı mübarizəsinə təkan verə bilər: "Altı aydan etibarən hər kəsin qrip vaksinindən istifadəsi məsləhətdir. Ağır infeksion xəstəlik keçirən, kəskin alergik reaksiyası olan və altı aydan aşağı uşaqlara peyvəndin vurulması məsləhət deyil. Vaksinlərin hansı ölkələrdən gətiriləcəyi, qiyməti, eləcə də ödənişsiz olub-olmayacağı hələ ki, məlum deyil".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

---

◆ Yeni dərs ili qarşısında

## Qazax məktəblərində tədris ilinə ciddi hazırlıq işləri aparılır

**Qazaxda 2020-2021-ci tədris ilinin başlanması ilə əlaqədar Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" 29 avqust 2020-ci il tarixli Qərarından irəli gələn məsələlərlə bağlı qarşıda duran vəzifələr müzakirə olunmuşdur.**





Rayon icra hakimiyyətinin məsul işçiləri və təhsil şöbəsinin əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə bir sıra vacib məsələlərə toxunulmuşdur.

Qeyd edilmişdir ki, yeni dərs ilinin başlanması ilə əlaqədar təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, təhsil müəssisələrinə buraxılış rejiminin sanitar-epidemioloji tələblər nəzərə alınmaqla təşkili, pandemiya ilə əlaqədar şagirdlərin dərsə başlamalarının növbəli şəkildə tənzimlənməsi, onların siniflərdə yerləşdirilməsi xüsusi diqqətdə olmalıdır. Məktəbə daxil olan hər bir müəllimin və şagirdin hərarətinin ölçülməsi üçün aparatların, dərs otaqlarında dezinfeksiyaedici məhlulların qoyulması, şagirdlərin hərarətini ölçmək üçün müəyyən şəxslərin ayrılması, tibbi maskadan istifadənin nəzarətə götürülməsi və ehtiyat maskaların təşkili, pandemiya qaydalarına necə əməl edilməsi ilə əlaqədar məktəbdə və siniflərdə maarifləndirici lövhələrin hazırlanıb vurulması vacibdir. Məktəblərin su və istilik sisteminin nəzarətdə saxlanması və digər məsələlər müzakirə edilmişdir. Bütün bu məsələlərin vaxtında həyata keçirilməsi üçün təhsil şöbəsinin rəhbərliyinə və aidiyyəti qurumların nümayəndələrinə müvafiq tapşırıqlar verilmişdir.

Tədbirdə vurğulanmışdır ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə təhsil sahəsinə göstərilən diqqət və qayğı sayəsində həyata keçirilən məqsədyönlü tədbirlər bəhrəsini verir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fondun reallaşdırdığı "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi Qazaxda da uğurla icra olunur. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə hazırlanmış tədbirlər planına Qazax rayonu üzrə 11 məktəb binasının əsaslı təmirinin və ya tikintisinin salınması bunun əyani sübutudur. Təkcə bu il Heydər Əliyev Fondu tərəfindən rayonda Sarıvəlli kənd tam orta məktəbi üçün 220 şagird yerlik yeni binanın inşa olunması, yenə də fond tərəfindən Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan 1176 şagird yerlik Kosalar kənd tam orta məktəbinin əsaslı şəkildə yenidən qurulması, Təhsil Nazirliyi tərəfindən Aydın Məmmədov adına Qaymaqlı kənd tam orta məktəbi üçün 180 şagird yerlik yeni binanın tikilməsi, ölkə rəhbəri tərəfindən Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-lisey binasının əsaslı təmiri ilə bağlı imzalanmış sərəncam Qazax təhsilinə və gələcəyimiz olan uşaqlara olan dövlət qayğısının bariz nümunəsidir. Tədbir iştirakçıları bütün bunlara görə dövlət başçısına və Birinci vitse-prezidentə minnətdarlıq etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

---

## Nazirlər Kabineti yanında Operativ Qərargah uşaq bağçalarının açılmasına dair məlumat yayıb

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq 2020-ci il 1 oktyabr tarixindən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə, 2020-ci il 15 sentyabr tarixindən isə yerdə qalan rayon və şəhərlərdə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçalarının fəaliyyətinə icazə verilib.



AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti 330 №li Qərar imzalayıb və rəsmi saytına yerləşdirilib.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda bağçaların bir qədər gec, 1 oktyabr tarixdən açılmasının səbəbi əhalinin sayı və sıxlığının daha yüksək olmasıdır. Bu, həm də bağçalarda müvafiq hazırlıq işlərinin görülməsi, dezinfeksiya işlərinin aparılması üçün daha uzun müddətin tələb olunması ilə əlaqəlidir.

Eyni zamanda bu müddətdə bağça tərbiyəçiləri və texniki işçilər bağçaların yeni qaydalarla açılması və idarə edilməsinə dair təlimatlandırılacaq, oyun, yataq və digər otaqlar xüsusi qaydalarla təşkil olunacaq.

Uşaq bağçalarının açılması zamanı müvafiq sanitar-gigiyenik qaydaların təmin edilməsi vacib şərtdir.

---

## Bakıda 1000, Sumqayıt və Gəncədə 100-dən çox könüllüdən seroloji test nümunəsi götürülüb

Ölkəmizdə ilk dəfə olaraq Bakıda keçirilən seroloji testlər yekunlaşmaq üzrədir. Güman edirik ki, bu həftə testlər başa çatacaq və onun ilkin nəticələri barədə məlumat verə biləcəyik.

Bu barədə AZƏRTAC-a açıqlamasında tibb üzrə fəlsəfə doktoru, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Mikrobiologiya İşçi qrupunun rəhbəri Qumral Ələkbərova deyib.

Onun dediyinə görə, artıq təsadüfi seçilmiş 1000-dən artıq könüllü test edilib və onların qan zərdabında virus əleyhinə anticisimlərin yaranıb-yaranmadığı aşkar ediləcək. İşçi qrupunun rəhbəri seroloji testlərin proqnostik əhəmiyyət daşıdığını və hazırda əhalinin neçə faizinin yeni növ koronavirus (COVID-19) xəstəliyi keçirməsini öyrənməyə imkan verəcək: "Seroloji testlər nəticəsində əhalinin yarıdan çoxunda anticisimlərin yaranmasının aşkar edilməsi karantin rejimində məhdudiyyətlərin ləğv olunması üçün əsas verəcək. Nümunə götürülənlərin az qismində anticisimlərin aşkar edilməsi karantin rejimində sərtləşdirməyə ehtiyac olduğunu ortaya çıxaracaq. Nəticələr haqqında yəqin ki, gələn həftə danışmaq mümkün olacaq".

Bu həftə Gəncə və Sumqayıt şəhərlərində də seroloji testlərin aparılmasına başlanılıb və hər iki şəhərdə təsadüfi seçilmiş könüllülərdən 100-ə yaxın nümunə alınıb. Şəhər sakinləri testlərin aparılmasını anlayışla qarşılayır və COVID-19 infeksiyası ilə mübarizədə onun oynadığı həlledici əhəmiyyəti nəzərə alaraq skrininqlərdən həvəslə keçirlər.

---

## Azərbaycanda koronavirus infeksiyasından 154 nəfər sağalıb, 175 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 154 nəfər müalicə olunaraq sağalıb, 175 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 37 min 732 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 35 min 119 nəfər müalicə olunaraq sağalıb, 555 nəfər vəfat edib. Aktiv xəstə sayı 2058 nəfərdir. Ötən müddət ərzində 980 min 978 test aparılıb. Dünənki test sayı isə 7040-dır.




---

## Atəşkəs rejimi 51 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 51 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Çinari kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Koxanəbi və Əsrik Cırdaxan, Gədəbəy rayonunun Qaravəlilər kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

---

## Bir qrup şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə fərdi evlər verilib









Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Lənkəran rayonunda inşa etdirilmiş 14 fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.

Evlərin təqdim edilməsi tədbirində nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Xalid Rəhimov iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğı göstərdiyini vurğulayan V.Behbudov bunun daha bir təzahürü kimi həssas əhali qrupları ilə bağlı sosial müdafiə proqramlarının ildən-ilə genişləndiyini diqqətə çatdırıb. O qeyd edib ki, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu kateqoriyalardan olan vətəndaşların mənzillə təminatı işləri də getdikcə güclənir. Onlara 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626, ötən il 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə isə şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Hazırda Lənkəran rayonunda təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 568 mənzil və fərdi ev (o cümlədən 554 mənzil, 14 fərdi ev) verilib. Digər mənzillər və fərdi evlər də ilin sonunadək veriləcək.

V.Behbudov, ümumilikdə, ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8156 mənzil və fərdi ev verildiyini bildirib.

O, həmçinin nazirlik tərəfindən müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 2018-ci ildə 265 avtomobil, 2019-cu ildə 600 avtomobil verildiyini deyib. Eyni zamanda 2020-ci ildə onlara 400 avtomobil verilməsinin nəzərdə tutulduğunu və onlardan artıq 150-nin təqdim edildiyini, bu vaxta qədər müharibə əlilləri və onlara bərabər tutulanların 6900 minik avtomobili ilə təmin olunduğunu qeyd edib.

Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların sosial müdafiəsinin gücləndirilməsinə göstərilən yüksək qayğıya, yeni fərdi yaşayış evləri ilə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Yeni nəşrlər

# Xatirələrdə əbədi yaşamaq şərəfi

## Şəhid general Polad Həşimov minlərlə əsgərin, zabitin, saysız-hesabsız vətənpərvərin qəlbində özünə əbədiyyət abidəsi ucaltdı

**O, adilərdən olmadığı üçün haqqında deyilənlər, yazılanlar da əfsanəvi bir qəhrəmanı xatırladır. Yox, o, nağıl qəhrəmanı deyil, xalqın qəlbində özünə yaşamaq heykəli ucaldan, bugünkü və sabahkı nəsillərə örnəkdir: Vətənə, dövlətə, xalqa, torpağa sədaqətli xidmət göstərərkən şəhidlik zirvəsinə ucaldığı üçün...**

14 iyul 2020-ci ildə Tovuz rayonu ərazisində gedən qanlı döyüşlərdən ötən hər gün onun haqqında söz açılır, vətənpərvərliyi nümunə göstərilir, düşmənlə üz-üzə səngərdə öz əsgərini canından artıq sevib qoruyan general Polad Həşimovun igidliyi dillərdə dastana dönür. Şəhid generalımıza xalq sevgisi gündən-günə artmaqda, gənc əsgər və zabitlərimiz onun kimi olacaqlarına and içməkdədirlər.

Ölkə ictimaiyyəti ilə yanaşı, şəhidimiz hər gün təmasda olduğu əsgər və zabitlərimizin xatirəsində əbədi yaşayacaq. Bunu onun haqqında ürək sözlərindən ibarət "General Polad Həşimov xatirələrdə" kitabından da görmək olar.

Azərbaycan Prezidenti İlham Əliyevin şəhid general Polad Həşimov haqqında söylədiyi "General Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərib. Mənim tərəfimdən ilk dəfə yüksək dövlət ordeni ilə təltif edilmiş, ona general rütbəsi verilmişdir" fikirlərlə açılan, şəhidlərimizin ruhuna dərin ehtiramın ifadəsi olan kitab "Hədəf nəşrləri" komandası və "XAN" nəşriyyatı tərəfindən işıq üzü görüb.

Məqalələr və müsahibələrdən ibarət toplu şəhid general Polad Həşimovun 40 mərasiminədək ərsəyə gəlib.

Layihə rəhbəri və tərtibçi - filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadiqin "Həyat qədər dəyərli ölüm" adlı ön sözündə şəhid generalın həm də insan kimi yüksək dəyərlərə, xüsusiyyətlərə sahib olduğunu qeyd edilir: "Bundan sonra bizim də borcumuz cənab generalı xatirələrdə yaşatmaq, gələcək nəsillərə öyrətməkdir. Çünki generalımız Polad Həşimov şəhid olan kimi onun haqqında o qədər statuslar yazıldı, o qədər xatirələr danışıldı ki, biz də, sadəcə, bir hərbçi, bir general itirdiyimizin yox, bir qayğıkeş ata, bir mərhəmətli müəllim, bir şəxsiyyət, bir İNSAN itirdiyimizi anladıq".

Bir neçə ildir ki, tanınmış şəxsiyyətlərin, ictimai-siyasi xadimlərin həyatı ilə bağlı "Xatirə ədəbiyyatı" adı altında silsilə kitablar buraxan nəşriyyat iyul şəhidlərinin xatirələrini əbədiləşdirmək məqsədi ilə bu toplunu da oxuculara hədiyyə edib. Generalımızın ailəsi, dostları, silahdaşları, əsgərlərin xatirələri, düşüncələri yer alan bu kitab, şübhəsiz ki, gənclərə də böyük töhfə olacaq.

Toplunun zənginliyi ondadır ki, burada doğmalardan dostlara, tanışlardan tanınmazlaradək hər kəsin səmimi ürək sözləri var. Generalın anası Səmayə xanım və ömür-gün yoldaşı Ofelya Həşimovanın fikirlərini həyəcansız oxumaq mümkün deyil. Bacısı Kəmalə Həşimova qardaşının uşaqlıq illərindən şəhidliyədək uzanan enişli-yoxuşlu yollarında şam kimi damcı-damcı əriyir, gahdan kövrəlir, gahdan isə igidinin, düşmən qarşısında əyilməyən şəhidinin qeyrətindən, qürurundan, vətənpərvərliyindən, ailəcanlılığından fəxrlə, başını dik tutaraq söz açır, göz yaşlarını qəlbinə axıtsa da...

İlqar Həşimovun "Sevirdi çətinliyi" müsahibəsində general qardaşı ilə bağçaya birlikdə getdiyindən öncə, Qəbələnin, eləcə də doğulduqları Vəndam kəndinin tarixindən, atadan yox, babadan daha çox tərbiyə aldıqlarından söz açılır.

Ehtiyatda olan baş leytenant Elbrus Rzayev isə xatirələrinə belə sərlövhə qoyub: "Komutan, olarmı sizinlə şəkil çəkdirim?" Bu xatirə-məqalədə müəllif Polad Həşimovu "Murovdağın generalı" adlandırır. 1996-cı ildə leytenant Polad Həşimovla onun hələ bölüyündə taqım komandiri kimi xidmətə başladığı illərdən tanıdığı dostu haqqında yaddaqalan şirin xatirələrini oxucularla bölüşür:




"Daşkəsəndə bir ilki də o etdi: axan çaydan motor vasitəsilə elektrik enerjisi götürüb, kazarmalara televizor qoydu ki, dünyadan xəbərləri olsun... Qəlbimizdə Polad Həşimov "Murov generalı" olaraq yaşayacaq..."

Tovuz hadisələrindən sonra xalqımızın dilinin əzbəri olan general Polad Həşimovun örnək ömründən - vətənpərvərliyindən bəhs edən kitabda bir-birindən dəyərli məlumatlar və ürək sözləri yetərincədir. Xüsusi olaraq qeyd edilir ki, son 30 ildə Azərbaycan xalqının milli ruhunun özünə qayıtmasında bir neçə belə qəhrəmanlıq nümunəsi göstərilib. Tovuzda qarşısı alınan təxribatda generalımızın göstərdiyi igidlik isə ayrıca bir zirvədir: "Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimiz bizə çox pis təsir edib. Xocalıda, ümumiyyətlə, Qarabağda vətəndaşlarımızın başına gətirilənlər yada düşəndə daxilən "əzilmişik" psixologiyası qara çiskin kimi üstümüzə çöküb və susmuşuq. Lakin bu 30 ildə generalın şəhid olması üçüncü hadisədir ki, bizə bizi anlatdı, kim olduğumuzu sübut etdi..."

Bəli, onlardan biri Milli Qəhrəman Mübariz İbrahimovun şücaəti, biri Aprel döyüşləri, biri isə iyul ayında generalımızın şəhid olduğu hadisədir ki, bizi bizə qaytardı! Mübariz İbrahimov düşmənin içərisinə girərək partizanlıq etdi - təkbaşına qisas aldı. Aprel döyüşlərində Milli Ordumuz ərazilərimizin bir hissəsini geri qaytardı. Lakin iyul hadisələri - sıravi əsgərlərimizdən generalımızadək şəhid olması bizə başqa mətləbləri də anlatdı: bir millət olaraq özümüzə inamımız artdı. Əmin olduq ki, ən yüksək çinli məmur belə Vətən üçün yaşayır, döyüşür, canını fəda edə bilir. Generalın ön cəbhədə əsgərləri ilə döyüşüb şəhid olması bu millətin içindəki səsi ucaltdı. O səs ki, zamanında dünyaya yayıldı, 50 milyonluq Azərbaycan xalqı dövlətinin və Ali Baş Komandanının ətrafında daha sıx birləşdi!

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti fəlsəfə doktoru proqramı əsasında 2020-ci il üçün aşağıdakı ixtisaslara dissertant qəbulu üzrə müsabiqə elan edir

**1. RİYAZİYYAT - 12**
a) Analiz və funksional analiz - 1202.01 - ödənişli əsaslarla - 1 yer.
b) Diferensial tənliklər - 1211.01 - ödənişli əsaslarla - 1 yer.

**2. KİMYA - 23**
a) Qeyri-üzvi kimya - 2303.01 - büdcə hesabına - 1 yer.
b) Üzvi kimya - 2306.01 - ödənişli əsaslarla - 1 yer.

**3. BİOLOGİYA ELMLƏRİ - 24**
a) Zoologiya - 2401.01 - büdcə hesabına - 1 yer.

**4. İQTİSAD ELMLƏRİ - 53**
a) Ümumi iqtisadiyyat - 530801 - ödənişli əsaslarla - 1 yer.

**5. COĞRAFİYA - 54**
a) Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası-5408.01 - büdcə hesabına - 1 yer.

**6. TARİX - 55**
a) Ümumi tarix - 5502.01 - büdcə hesabına - 1 yer.
b) Vətən tarixi - 5503.02 - ödənişli əsaslarla - 1 yer.

**7. FİLOLOGİYA ELMLƏRİ - 57**
a) Dil nəzəriyyəsi - 5704.01 - büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.
b) Azərbaycan dili - 5706.01 - büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.
c) Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik - 5714.01 - büdcə hesabına - 1 yer
e) Dünya ədəbiyyatı - 5718.01 - ödənişli əsaslarla - 1 yer.

**8. PEDAQOGİKA - 58**
a) Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 5801.01 - büdcə hesabına - 1 yer.
b) Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 5804.01 - büdcə hesabına - 1 yer.

**9. SİYASİ ELMLƏR - 59**
a) Siyasi nəzəriyyə - 5908.01 - büdcə hesabına - 1 yer.

**10. PSİXOLOGİYA - 61**
a) Ümumi psixologiya - 6107.01 - ödənişli əsaslarla - 1 yer.
b) Eksperimental psixologiya - 6302.01 - büdcə hesabına - 1 yer.

**11. FƏLSƏFƏ - 72**
a) Ümumi fəlsəfə - 7203.01 - ödənişli əsaslarla - 1 yer.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti fəlsəfə doktoru proqramı əsasında 2020-ci il üçün aşağıdakı ixtisaslara doktorant qəbulu üzrə müsabiqə elan edir

**1. RİYAZİYYAT - 12**
a) Analiz və funksional analiz - 1202.01 - büdcə hesabına - əyani 1 yer.

**2. KİMYA - 23**
a) Qeyri- üzvi kimya - 2303.01 - büdcə hesabına - əyani 1 yer.
b) Üzvi kimya - 2306.01 - büdcə hesabına - əyani 1 yer.

**3. BİOLOGİYA ELMLƏRİ - 24**
a) Ekologiya - 2426.01 - büdcə hesabına - əyani 1 yer.

**4. İQTİSAD ELMLƏRİ - 53**
a) Ümumi iqtisadiyyat - 530801 - büdcə hesabına - əyani 1 yer.

**5. TARİX - 55**
a) Ümumi tarix - 5502.01 - büdcə hesabına - əyani 1 yer.
b) Vətən tarixi - 5503.02 - büdcə hesabına - əyani 1 yer.

**6. FİLOLOGİYA ELMLƏRİ - 57**
a) Dil nəzəriyyəsi - 5704.01 - büdcə hesabına - əyani 1 yer.
b) Azərbaycan dili - 5706.01 - büdcə hesabına - əyani 1 yer, ödənişli- qiyabi 1 yer.
c) Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik - 5714.01 - büdcə hesabına - əyani 1 yer.
e) Azərbaycan ədəbiyyatı - 5716.01 - büdcə hesabına - qiyabi 1 yer.
ə) Dünya ədəbiyyatı - 5718.01 - büdcə hesabına - əyani 1 yer.

**7. PEDAQOGİKA - 58**
a) Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 5801.01 - büdcə hesabına - əyani 1 yer.
b) Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 5804.01 - büdcə hesabına - əyani 1 yer.

**8. PSİXOLOGİYA - 61**
a) Ümumi psixologiya - 6107.01 - büdcə hesabına - əyani 1 yer.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti elmlər doktoru proqramı əsasında 2020-ci il üçün aşağıdakı ixtisaslara dissertant qəbulu üzrə müsabiqə elan edir

**1. BİOLOGİYA ELMLƏRİ - 24**
a) Botanika - 2417.01 - büdcə hesabına- 1 yer.

**2. PEDAQOGİKA - 58**
a) Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 5801.01 - büdcə hesabına - 2 yer.

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**
- Rektorun adına ərizə;
- Kadrların şəxsi-qeydiyyat vərəqi;
- Tərcümeyi-hal;
- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə); diplom əlavələri (təsdiqlənmiş formada);
- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üzrə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Qəbul qaydalarına uyğun olaraq sənədlər 25 sentyabr 2020-ci il tarixədək şənbə və bazar günlərindən başqa hər gün saat 09:00-dan 17:00-a kimi GDU-da qəbul edilir.**

**Ünvan: AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.**
**Tel: (+99222) 266-01-88**
**Elm və innovasiyalar**

***Rektorluq***

---

# Beynəlxalq aləm

## Türkiyə və İran terrorizmə qarşı birgə mübarizəyə hazırdır



Türkiyə və İran regionda terrorçulara qarşı mübarizəyə, o cümlədən PKK yaraqlılarına qarşı birgə əməliyyatların təşkilinə dair addımlar atmağa hazırdırlar.

Bu barədə iki ölkə prezidentlərinin sədrliyi ilə videokonfrans rejimində Türkiyə-İran Yüksək Səviyyəli əməkdaşlıq Şurasının 6-cı iclasının Birgə Bəyannaməsinin mətnində deyilir.

"Anadolu" Agentliyinin xəbərinə görə, Bəyannamədə Ankara ilə Tehranın iqtisadi əməkdaşlığı inkişaf etdirməyə və ticarət dövriyyəsini bərpa etməyə hazır olduqları da vurğulanır.

## ABŞ-ın antiterror müharibələri 37 milyon insanı qaçqın vəziyyətinə salıb

2001-ci ildə ABŞ-ın beynəlxalq terrorizmlə elan etdiyi müharibə nəticəsində bütün dünyada ən azı 37 milyon insan öz evlərini tərk etməyə məcbur olmuşdur. Belə məlumatlar Braun Universitetinin (ABŞ-ın Rod-Aylend ştatı) açıqladığı "Müharibənin qiyməti" adlı məruzədə verilmişdir.

Sənədə əsasən, söhbət Əfqanıstan, İraq, Liviya, Filippin, Yəmən, Pakistan, Somali və Suriyadan qaçan mülki şəxslərdən gedir. Burkina Faso, Kamerun, Mərkəzi Afrika Respublikası, Çad, Konqo Demokratik Respublikası, Mali və Nigerdə ABŞ hərbi qulluqçularının daha kiçik antiterror əməliyyatları nəzərə alınmaqla, qaçqınların ümumi sayı 48-59 milyon nəfərə çata bilər.

"Bu hesabat ABŞ-ın həmin ölkələrə müdaxiləsinin bir çox cəhətdən dəhşətli dərəcədə fəlakətli və dağıdıcı olduğunu göstərir ki, bunu da, mən də daxil olmaqla, əksər amerikalılar üçün anlamaq çətindir", - deyə tədqiqat müəlliflərindən biri, Vaşinqtondakı Amerika Universitetinin antropologiya professoru Devid Vayn bildirib.

---

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi *açıq tender elan edir*

**Tender predmeti:**
- Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi, respublikanın şəhər və rayon qeydiyyat şöbələrində, dövlət notariat ofislərində 2020-ci il ərzində istifadə ediləcək dəftərxana mallarının, müxtəlif növ lövhələrin və katriclərin elektron satın alınması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - **2020-ci il ərzində.**

Tender iştirakçıları öz tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **50** (əlli) manat məbləğində iştirak haqqını **"ASAN Ödəniş"** vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi**

**Hesab №: AZ61CTRE00000000000002088403**
**VÖEN: 1300498771**
**Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**

**Büdcə təsnifatının kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı (01.08.2020-ci il tarixdən sonra alınmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (01.08.2020-ci il tarixdən sonra alınmalıdır);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri (notarial qaydada təsdiq olunmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 sentyabr 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **08 oktyabr 2020-ci il saat 11:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 oktyabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri haqqında Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

---

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi *açıq tender elan edir*

**Tender predmeti:**
- Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi 2020-ci il üçün dövlət notariat ofislərində və qeydiyyat şöbələrində (orqanlarında) istifadəsi nəzərdə tutulan müxtəlif növ blank formaları, qeydiyyat şəhadətnamələri, akt qeydləri, qeydiyyat kitabçaları, həmçinin əmrlər, qərarlar, qanunlar, təlimatlar, arxiv sənədlərinin hesabat toplusu, iş planı, bülletenlərin, arxiv sənədləri üçün xüsusi qutuların hazırlanması və arxiv sənədlərinin cildlənməsinin elektron satın alınması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - **2020-ci il ərzində.**

Tender iştirakçıları öz tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **300** (üç yüz) manat məbləğində iştirak haqqını **"ASAN Ödəniş"** vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi**

**Hesab №: AZ61CTRE00000000000002088403**
**VÖEN: 1300498771**
**Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**

**Büdcə təsnifatının kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı (01.08.2020-ci il tarixdən sonra alınmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (01.08.2020-ci il tarixdən sonra alınmalıdır);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri (notarial qaydada təsdiq olunmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 sentyabr 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **08 oktyabr 2020-ci il saat 11:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 oktyabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri haqqında Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində və etender.gov.az Portalında 13 iyul 2020-ci il tarixdə elan edilmiş GPON (Giqabit imkanlı passiv optik şəbəkə) Texnologiyasının tətbiqi ilə mənzillərin telefonlaşdırılması, LTE (Simsiz Telefon Rabitəsi) tətbiqi ilə baza stansiyalarının quraşdırılması və şəbəkənin genişləndirilməsi məqsədilə iş və xidmətlərin satın alınması üzrə keçirilmiş açıq tenderin nəticələri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 50-1.1. bəndinə əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

---

## Bakı Şəhər Baş Polis İdarəsi paytaxtda icazəsiz aksiya keçirilməsinə cəhd göstərilməsi ilə bağlı məlumat yayıb

Bakı Şəhər Baş Polis İdarəsi Səbail rayonu ərazisində bir neçə nəfərin icazəsiz aksiya keçirməyə cəhd göstərməsi ilə bağlı məlumat yayıb. İdarədən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, sentyabrın 9-da saat 15 radələrində 20-25 nəfər "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozaraq, Səbail rayonundakı İstiqlaliyyət küçəsində Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmadan toplaşıb küçə yürüşü keçirməyə cəhd edib. Qanunsuz küçə yürüşünə cəhdin qarşısı ərazidə xidmətdə olan polis əməkdaşları tərəfindən alınıb, iştirakçılar ərazidən uzaqlaşdırılıblar. Saxlanılan və ya həbs edilən olmayıb.

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 - "Bakı Telefon Rabitəsi" MMC üzrə LTE avadanlıqlarını dayanıqlı elektrik enerjisi ilə təmin etmək məqsədilə tələb olunan 3 KVA UPS-in tender üsulu ilə satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 150 (bir yüz əlli) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **01 oktyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **09 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **12 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada* ***etender@gov.az*** *dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 10 iyun 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş "Dəftərxana mallarının satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "İntellekt M.A" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "İntellekt M.A" MMC arasında 19 avqust 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 18 sentyabr 2020-ci il saat 14:30-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni"nin III yeni ("Bənövşəyi") xəttinə aid "Avtovağzal" - "Xocəsən" elektrik deposu mənzil tunellərində və 1A saylı Ventilyasiya şaxtasında yanğın-texniki su xəttinin çəkilməsi işlərinin satın alınması üzrə açıq tenderin vaxtı 30 sentyabr 2020-ci il saat 14:30-a keçirilmişdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 21 sentyabr 2020-ci il saat 14:30-a qədər, tender təklifi və bank təminatını isə 29 sentyabr 2020-ci il saat 14:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 26 avqust 2020-ci il tarixdə LOT-1 üzrə "Bakı Metropoliteni" QSC üçün elektrik ayırıcılarının satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə "İnterkabel" firması qalib elan olunmuşdur.

Qalib təşkilatla 4 sentyabr 2020-ci il tarixdə 165871,47 (yüz altmış beş min səkkiz yüz yetmiş bir manat 47 qəpik) manat məbləğində (ƏDV daxil) müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Pedaqoji Kolleci
## Dəftərxana və təsərrüfat mallarının
## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11 sentyabr 2020-ci il saat 17:00-dək qəbul olunur.

Maraqlanan təşkilatlar **+99412 537- 22 - 01** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti, 45.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 09 sentyabr 2020-ci il tarixdə elan edilmiş "BTR" MMC-nin Rabitə xidmətləri mərkəzlərinin EATS-lərində quraşdırılması üçün tələb olunan sənaye tipli kondisionerlərin satın alınması üzrə keçirilən açıq tender elanı müvəqqəti olaraq dayandırılmışdır .

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Dövlət Pedaqoji Kolleci
## İnventarın kotirovka sorğusu üsulu ilə
## *satın alınmasını həyata keçirir*

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11 sentyabr 2020-ci il saat 17:00-dək qəbul olunur.

Maraqlanan təşkilatlar **+99412 537- 22 - 01** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti, 45.**

***Tender komissiyası***

## Göygöl Rayon İcra Hakimiyyəti başçısının
## Göygöl Şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyi 2020-ci il üçün
## *kotirovka sorğusu elan edir*

Göygöl şəhərində fəaliyyət göstərən körpələr evi - uşaq bağçalarına maşın və avadanlıqların alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 17 sentyabr 2020-ci il saat 17:00-dək qəbul olunur.

Əlaqələndirici şəxs: Hüseynov Ceyhun Əmrah oğlu

**Tel: (02220)5-32-20: mob: 055-358-59-47**

**Ünvan: Göygöl şəhəri, S.Hacıyev küçəsi, 42**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 30 iyul 2020-ci il tarixdə

LOT-1. Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kv-luq iki dövrəli SİP kabel xəttinin tikintisi işlərinin satın alınması (1-ci mərhələ)

LOT-2. Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kv-luq iki dövrəli SİP kabel xəttinin tikintisi işlərinin satın alınması (2-ci mərhələ) məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı yetərincə olmadığı üçün tender sənədlərinin qəbulu 18 sentyabr 2020-ci il saat 16:00-a, tender təkliflərinin qəbulu 28 sentyabr 2020-ci il saat 16:00-a, zərflərin açılışı isə 29 sentyabr 2020-ci il saat 16:00-a qədər uzadılır.

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi

**NAMİQ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Aparatın əməkdaşları iş yoldaşları Səbinə Həsənovaya atası

**SAKİT GÖZƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Həsənovlar ailəsinə əzizləri

**NAMİQ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tahir Budaqov

**NAMİQ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

AMEA Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini Eynulla Mədətli Naxçıvan MR Ali Məclisinin sabiq sədri

**NAMİQ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev

**NAMİQ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

TuranBank ASC-nin Müşahidə Şurası və İdarə Heyəti "AqrarKredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının İdarə Heyətinin üzvü Vilayət Abdullayevə atası

**MƏCİD ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7463
Sifariş 2109
Qiyməti 40 qəpik